RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 21 (8337) ŞƏNBƏ, 1 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin təşəbbüsündən sonra yaranan beynəlxalq enerji formatı - "OPEC+"

**Hələ 4 il əvvəl, 2016-cı ilin yanvarında Pezident İlham Əliyev Dünya İqtisadi Forumunun "Yeni enerji tarazlığı" mövzusunda keçirilən sessiyasında neftin qiymətinin sabitliyinə nail olmaq üçün OPEC-ə üzv olan və olmayan ölkələrin bir araya gəlməsi ilə bağlı təşəbbüslə çıxış etmişdi. Bu təşəbbüs sonrakı mərhələdə OPEC-ə üzv olan və olmayan ölkələr arasında neftin qiymətinin tənzimlənməsi ilə bağlı qlobal enerji dialoqlarının başlanması ilə müşayiət edildi. Nəticəsi isə özünü çox gözlətmədi və tezliklə xam neftin qiymətində yüksəlmə və sabitləşmə baş verdi.**

## Məhəmməd Barkindo: "Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz"

Təsadüfi deyil ki, bu il yanvarın 21-də Davosda İlham Əliyevlə görüşən OPEC-in baş katibi Məhəmməd Barkindo söhbətə məhz Azərbaycan Prezidentinə həmin təşəbbüsünü minnətdarlıq hissi ilə yada salmaqla başladı. Baş katib İlham Əliyevi uzaqgörən və çox qətiyyətli lider adlandıraraq deyib: *"Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü".*

Həmin illərdə neftin qiyməti dünya bazarlarında 4 dəfədən də çox azalaraq 30 dollara düşmüşdü. İlkin dövrlərdə bu məsələdə o qədər də fəallıq göstərməyən OPEC ilk dəfə Prezident İlham Əliyevin çağırışından sonra qiymət azalmasının qarşısının alınmasına dair birgə fəaliyyətə başladı və daim canlanma müşayiət edildi. 2016-cı il oktyabrın 29-da Vyanada OPEC-ə üzv və üzv olmayan dövlətlərin Yüksək Səviyyəli Komitəsinin birinci iclası keçirildi. İlk iclas 21 ölkənin, o cümlədən qeyri-OPEC ölkələrindən 6 dövlətin (Azərbaycan, Braziliya, Qazaxıstan, Meksika, Oman və Rusiya) nümayəndə heyətlərinin iştirakı ilə konstruktiv və məhsuldar müzakirələr baş tutdu. Konstruktiv dialoqun nəticəsi olaraq 2016-cı il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 milyon barel azaldılaraq 32,5 milyon barelə endirilməsi barədə razılıq əldə edildi.

Ardı 2-ci səh.

# Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist və teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyi tamam olur.

Əbdürrəhim bəy Haqverdiyev öz məşhur sələflərinin ədəbi ənənələrinin layiqli davamçısı və geniş erudisiyaya malik müasir dünyagörüşlü maarifpərvər ziyalı kimi çoxşaxəli fəaliyyət göstərmiş, Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni mərhələyə qaldıraraq milli düşüncənin inkişafında əhəmiyyətli rol oynamışdır. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin yüksəlişinə yol açmışdır. Onun canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Vətənpərvər ədib sevdiyi və təmənnasız xidmətində dayandığı xalqın arzu və istəklərini əsərlərində dolğun əks etdirmiş, maarifçiliyin alovlu təbliğatçısı olaraq daim mədəni oyanışa və tərəqqiyə səsləmişdir. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ictimai həyatında fəal iştirak etmiş və sosial-mədəni quruculuq işlərində yorulmadan çalışmışdır.

Əbdürrəhim bəy Haqverdiyevin adının UNESKO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi çoxəsrlik ədəbiyyatımızın parlaq siması olan ədibin mənəvi sərvətlərimizi və ali ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən humanist ruhlu yaradıcılığının lazımınca və yüksək qiymətləndirilməsinin aydın təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının ədəbi-bədii və mədəni-ictimai fikir xəzinəsinə töhfələr bəxş etmiş qüdrətli söz ustası Əbdürrəhim bəy Haqverdiyevin 150 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, böyük ədib Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

# Ş.M.Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Məhərrəm oğlu Əliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

# M.S.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Maqomed Səidoviç Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

# F.Y.Əliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda elmin inkişafında xidmətlərinə görə Fuad Yusif oğlu Əliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

# İxracda aqrar sektor ikinciliyi əldən vermir

Aqrar sektorun inkişafını göstərən statistik rəqəmlər davamlı surətdə artmaqdadır. Belə ki, 2019-cu ildə bu artım təxminən 7, o cümlədən bitkiçilikdə 10 faizdən çox olmuşdur.

Ölkədə sürətlə yeni bağlar salınır və ümumiyyətlə, meyvəçiliklə məşğul olan fermerlər bu sahədə fəaldırlar. Kənd təsərrüfatının ənənəvi sahələrinin - üzümçülüyün, baramaçılığın və pambıqçılığın sürətlə inkişaf etdirilməsi bütünlükdə ixraca müsbət təsir edir. Aqrar sektorda aparılan islahatlar ötən il bu sahədə ixracı da xeyli artımağa imkan vermişdir. Son illər özəl sektorun fəaliyyətinə göstərilən diqqət, güzəştli kreditlərin ayrılmasında fermerlərə verilən dəstək, subsidiyaların əhatə etdiyi sahələrin genişlənməsi gələcəkdə aqrar sektorda məhsul istehsalının artımını sürətləndirəcəyi şübhəsizdir.

Ənənəvi məhsulların istehsalının artımı ilə bağlı nə qədər ciddi addımlar atılırsa, bir o qədər də aqrar sektorda innovasiyaların və yeni texnologiyaların tətbiqinə fikir verilir. Ölkədə yaradılan aqroparklar ixracda yüksək nəticələrə nail olmağa imkan verir.

Eyni zamanda yeni ixrac bazarlarının axtarışları istiqamətində görülən işlər və reallaşdırılan tədbirlər də nəticəsiz qalmır. Müxtəlif ölkələrə ixrac missiyalarının ezamı, səfirliklərin nəzdində ticarət nümayəndəliklərinin, eləcə də ticarət evlərinin yaradılması Azərbaycan brendinin nüfuzunun artmasına xidmət edir və yeni ticarət əlaqələrinin qurulmasına imkan yaradır.

Ardı 4-cü səh.

# İqtisadi inkişaf yeni iş yerlərinin açılması ilə müşayiət olunur



Azərbaycanda aparılan islahatların iki əsas məqsədi var: iqtisadi inkişafı sürətləndirmək və əhalinin sosial rifahını yaxşılaşdırmaq. Ölkə rəhbəri çıxışlarında da dəfələrlə qeyd etmişdir ki, əsas məqsəd iqtisadi inkişafa nail olmaqla bərabər, əhalinin sosial rifahını yaxşılaşdırmaqdır.

Hər iki məqsədə xidmət edən bu amil isə yeni müəssisələrin, deməli, həm də yeni iş yerlərinin açılmasıdır.

Bu isə ilk növbədə sahibkarlığın inkişafından asılıdır. Bunun üçün ölkədə məqsədyönlü siyasət yürüdülür. Həmin siyasətin əsas istiqaməti sahibkarlığın inkişafına dəstək vermək və bu yolla əhalinin məşğulluğunu təmin etməkdir. Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunan müşavirədə bu barədə demişdir: "Kiçik və orta biznesin inkişafı - bu da prioritet məsələdir. Biz yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun əsas hissəsini kiçik və orta sahibkarlıq təmin edir. Azərbaycanda biz bu istiqamətdə birinci addımları atırıq və burada kiçik və orta biznesə dəstək yüksək səviyyədə olmalıdır... Dövlət investisiya proqramının digər xüsusiyyəti ondan ibarətdir ki, bu, iş yerləri yaradan və mövcud olan iş yerləri saxlayan bir prosesdir. Keçən il ölkədə 98 min yeni iş yeri yaradılıb".

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, sahibkarlığa verilən dəstək sayəsində keçən il statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 12,2 faiz artaraq cari il yanvarın 1-i vəziyyətinə 146233 olub. Yeni xidmət və istehsal sahələrində artım turistlərin yerləşdirilməsi, ictimai iaşə, inzibati və yardımçı xidmətlərin göstərilməsi, ticarət, nəqliyyat vasitələrinin təmiri, emal sənayesi, daşınmaz əmlakla əlaqədar əməliyyatlar və digər sahələri əhatə edir. Bu sahədə ticarət, tikinti, kənd təsərrüfatı, balıqçılıq, nəqliyyat vasitələrinin təmiri üzrə statistik vahidlərin xüsusi çəkisi daha yüksəkdir.

Ardı 2-ci səh.

9 fevral Milli Məclisə seçkilər günüdür

# Qanunvericiliyə ciddi əməl olunur

Fevralın 9-da ölkəmizdə Milli Məclisə keçiriləcək seçkilərə respublikanın hər yerində olduğu kimi, Bərdə rayonunda da ciddi hazırlıq görülüb.



Belə ki, məntəqələrin hamısında seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. Bütün seçki məntəqələri lazımi texniki avadanlıqlarla və məlumat kitabçaları ilə təchiz edilib.

Hazırda Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində 93 saylı Bərdə şəhər dairə seçki komissiyasında treninqlər davam etdirilir. Treninqlər dairə seçki komissiyasının MSK-da xüsusi proqramla təlim kursları keçmiş üzvləri tərəfindən keçirilir. Treninqlərdə seçki günü baş verə biləcək müstəsna hallar, səslərin sayılmasına hazırlıq, bülletenlərin təsnifatı, səsvermənin nəticələri barədə yekun protokolunun hazırlanması və doldurulması, səsvermə prosedurlarına dair nəzəri və praktiki tapşırıqlar məşğələlərin gedişində əyani formada təqdim olunur.

Ardı 3-cü səh.

## Beyləqan rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Beyləqan rayonunun əhalisi 41194 nəfər olan 10 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 12 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 840,0 (səkkiz yüz qırx) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2020-ci il*

---

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 yanvar tarixli Sərəncamına Əlavə*

### Beyləqan rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1. | Aşağı Çəmənli kəndi | 1 | 1451 |
| 2. | Aşıqalılar kəndi | 1 | 2448 |
| 3. | Baharabad qəsəbəsi | 1 | 992 |
| 4. | Beyləqan şəhəri | 2 | 16701 |
| 5. | Bünyadlı kəndi | 1 | 2626 |
| 6. | Dünyamalılar kəndi | 2 | 7450 |
| 7. | Eyvazalılar kəndi | 1 | 2894 |
| 8. | Şəfəq qəsəbəsi | 1 | 1257 |
| 9. | Təzəkənd kəndi | 1 | 3576 |
| 10. | Türklər kəndi | 1 | 1799 |
| | Cəmi | 12 | 41194 |

# "Bizim həyət" layihəsi çərçivəsində Səbail rayonunda daha bir həyət abadlaşdırılıb






Yanvarın 31-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Yenilənmiş həyət Səbail rayonu, Badamdar qəsəbəsi, Rafiq İsgəndərov küçəsi, 4A və Əziz Nəzərov küçəsi, 3, 3A, 5 və 9 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli yaşayış binalarını əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakıdakı binaların həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb, 160 metr uzunluğunda velosiped yolu çəkilib. Eyni zamanda, ərazidə 3 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 130 ədəd ağac və müxtəlif növ gül kolları əkilib və 600 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ərazidə müşahidə kameraları və yanğın hidrantları quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# İlham Əliyevin təşəbbüsündən sonra yaranan beynəlxalq enerji formatı - "OPEC+"

*Əvvəli 1-ci səh.*

Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barel azaldılması barədə sazişə imza atdı. İlin birinci yarısı üçün nəzərdə tutulmuş Vyana Bəyannaməsinə uyğun olaraq Azərbaycan həmin vaxt hasilatı sutkada 35 min barel azaltmaqla bağlı öhdəlik götürdü.

Beləliklə, ilk dəfə İlham Əliyevin təşəbbüsü və çağırışından sonra OPEC-ə üzv olan və olmayan ölkələr arasında "OPEC+" adı alan əməkdaşlıq formatı yarandı. M. Barkindo ilə görüşdə Prezident İlham Əliyev bunu nadir tərəfdaşlıq formatı adlandırdı: "Bu təklifi ciddi nəzərə aldığına görə OPEC-ə minnətdaram və biz həqiqətən çox nadir tərəfdaşlıq formatını yaratdıq. Hesab edirəm ki, bu formata malik olan, lakin təkcə format yox, eyni zamanda, qərarları səmərəli icra edən başqa belə bir beynəlxalq təşkilat yoxdur. Bəzən hətta bir təşkilat daxilində razılığa gəlmək mümkün olmur. Lakin OPEC-ə üzv olan və üzv olmayan ölkələr, böyük və kiçik neft istehsalçıları birləşdilər. Çünki bu, bizim ümumi məqsədimiz idi".

### Azərbaycan öhdəliklərinə sadiqdir

2017-ci ildə OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində OPEC-ə üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünün sonunadək, 173-cü iclas çərçivəsində isə 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEC və qeyri-OPEC ölkələrinin bu razılaşmasını Azərbaycan da imzalayıb.

2018-ci ilin dekabrında Vyanada OPEC və qeyri-OPEC nazirlərinin 5-ci görüşü keçirilib. Görüşdə neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən gündəlik 1,2 milyon barel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən, 2019-cu ilin yanvar ayından etibarən neft hasilatını sutkada OPEC üzvləri 800 min barel, kartelə daxil olmayan ölkələr isə 400 min barel azaldıblar. Azərbaycan da hasilatın azaldılması sazişinə qoşulub. Belə ki, respublikamız müvafiq hasilatın təxminən 20 min barel azaldılması ilə bağlı öhdəlik götürüb.

Ötən il martın 18-də Bakıda OPEC və qeyri-OPEC ölkələrinin Nazirlərinin Birgə Monitorinq Komitəsinin 13-cü iclası keçirilib. Toplantıda 14 neft istehsalçısı ölkə və OPEC Katibliyi yüksək səviyyədə təmsil olunub. Qeyd edək ki, iclas Prezident İlham Əliyevin OPEC və qeyri-OPEC ölkələrinin tədbirlərinin Bakıda keçirilməsi təklifi ilə keçirilib. Təklifin qəbulu isə neft bazarının tənzimlənməsi məqsədilə "OPEC+" formatının yaradılması təşəbbüsü ilə ilk dəfə çıxış edən Azərbaycan Prezidentinin enerji siyasətinə verilən yüksək qiymətin göstəricisi idi.

Qeyd edək ki, "OPEC+" formatı yaradılandan indiyədək Azərbaycan öz öhdəliyini tam yerinə yetirib. Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev bu barədə deyib: *"Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, "OPEC+" formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də "OPEC+" çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib".*

Bu gün dünya bazarlarında neftin qiymətinin məqbul səviyyədə olmasında "OPEC +" formatında əməkdaşlığın danılmaz rolu və böyük əhəmiyyəti var. Ona görə də neft bazarında balansın qorunması və qiymət sabitliyinə nail olmaq məqsədilə Azərbaycan "OPEC+" əməkdaşlığı çərçivəsində fəal rolunu bu gün də davam etdirir. Respublikamız neft bazarının beynəlxalq tənzimlənmə prosesinə bundan sonra da töhfə verməkdə davam edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Kiyevdə Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib



Yanvarın 31-də Kiyevdə Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanla Ukrayna arasında siyasi və iqtisadi sahələrdə dinamik əməkdaşlığın davam etdiyini deyən Ukraynanın İnfrastruktur naziri, komissiyanın həmsədri Vladislav Krikli hər iki ölkənin enerji, sənaye, nəqliyyat, kənd təsərrüfatı, turizm, səhiyyə və təhsil sahələrində birgə layihələr həyata keçirməsinin vacibliyini vurğulayıb.

"2014-cü ildən sonra Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi kəskin azalıb. Son 3 ildə isə bu rəqəm artmağa başlayıb. Ukrayna və Azərbaycan arasında ticarət dövriyyəsi ötən il təxminən 808 milyon dollar təşkil edib. Düşünürəm ki, Azərbaycan və Ukraynanın ticarət dövriyyəsini 2 milyard dollara qədər artırmaq olar" deyə V.Krikli əlavə edib.

Onun sözlərinə görə, Azərbaycan sərmayələri Ukrayna üçün çox böyük əhəmiyyət kəsb edir. Ukraynanın bu gün xarici investisiyalara ehtiyacı olduğunu qeyd edən nazir SOCAR-ı Qara dəniz şelfində qaz istehsalı konsorsiumuna qoşulmağa çağırıb. V.Krikli turizm sahəsinə toxunaraq bildirib ki, Azərbaycanın və Ukraynanın turizm potensialı olduqca yüksəkdir. Ona görə də turizm əlaqələrinin möhkəmlənməsi hər iki tərəfin xeyrinə olar. O bildirib ki, Azərbaycan və Ukrayna beynəlxalq arenada bu sahədə rəqib yox, tərəfdaş olmalıdır.

"İki ölkə arasında iqtisadi əlaqələrin inkişafında təkcə dövlət qurumları deyil, özəl sektor da yaxından iştirak etməlidir. Hesab edirəm ki, iki ölkənin qurumları arasında görüşlər intensiv keçirilməlidir" deyə nazir qeyd edib.

Azərbaycanın Energetika naziri, komissiyanın həmsədri Pərviz Şahbazov komissiyanın daha operativ çalışması üçün mütəmadi videokonfransların keçirilməsini təklif edib. Azərbaycan və Ukraynanın tarixi əlaqələrindən, strateji tərəfdaşlığından danışan P.Şahbazov bunun iqtisadi əlaqələrin güclənməsinə müsbət təsir edəcəyini söyləyib.

P.Şahbazov Azərbaycanın iqtisadi göstəricilərinin son 15 ildə 3 dəfə artdığını bildirərək bu dövr ərzində ölkə iqtisadiyyatına 200 milyard dollardan çox sərmayə qoyulduğunu və bunun da təxminən yarısının xarici sərmayələr olduğunu qeyd edib. Bu gün isə Azərbaycan artıq özü xarici investor ölkəyə çevrilib və xarici ölkələrə 20 milyard dollardan çox sərmayə qoyub. Ukrayna iqtisadiyyatına 1,1 milyard dollar sərmayə yatırılıb. Xarici tərəfdaşlarla ticarət dövriyyəsinə görə, Ukrayna 9-cu yerdədir. P.Şahbazovun sözlərinə görə, bu, son hədd deyil, Azərbaycan sərmayələrini artırmağa hazırdır.

Nazir bildirib ki, bu gün Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsinin həcmi mövcud vəziyyəti əks etdirmir.

İclasda Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Energetika nazirinin müavini Elnur Soltanov və digərləri çıxış edərək iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin inkişafından bəhs ediblər.

İclasın sonunda bir neçə hökumətlərarası sənəd və neft-qaz sahəsində əməkdaşlıq haqqında protokol imzalanıb.

Xatırladaq ki, Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının sonuncu iclası 2016-cı ilin iyulunda Bakıda keçirilib.

# İqtisadi inkişaf yeni iş yerlərinin açılması ilə müşayiət olunur

*Əvvəli 1-ci səh.*

Məlumatda o da qeyd edilir ki, cari il yanvarın 1-i vəziyyətinə görə, ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 92,5 faizini mikromüəssisələr təşkil edir və onların əsas hissəsi ticarət, xidmət, tikinti, kənd təsərrüfatı ilə məşğuldur. Bununla yanaşı, ötən il ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 5 faizini kiçik müəssisələr təşkil edib ki, onların da əsas hissəsi ticarət, tikinti fəaliyyəti ilə məşğul olub.

Bu dövrdə xüsusi mülkiyyətə aid olan statistik vahidlərin əsas hissəsi ticarət, xidmət, nəqliyyat vasitələrinin təmiri, tikinti, kənd təsərrüfatı, emal sənayesi və digər sahələrdə cəmlənmişdir. Bütün bunlara nəzər yetirdikdə görürük ki, ölkə üzrə sahibkarlara məxsus müəssisələrin çox hissəsi kiçik və orta sahibkarlıq subyektləri təşkil edir, eyni zamanda onların fəaliyyət sahələri də bir-birinə yaxındır.

Ötən il yeni yaradılan statistik vahidlərin 99,1 faizi xüsusi (o cümlədən, 17,5 faizi tam xarici investisiyalı, 2,2 faizi birgə mülkiyyətli), 0,1 faizi bələdiyyə, 0,8 faizi dövlət mülkiyyətli müəssisələrin payına düşür. Reyestr qeydiyyatından keçmiş statistik vahidlərdən tam xarici investisiyalı və birgə müəssisələrin çoxu Türkiyə, İran, Rusiya, Böyük Britaniya, ABŞ, Almaniyadan olan sahibkarlara məxsusdur.



Buradan aydın görünür ki, ölkəmizdə xarici investorlara yaradılan münbit şərait və yerli sahibkarlara verilən dəstək sayəsində özəl sektorda yeni birgə müəssisələr yaradılır. Dövlət bu yolla həm iqtisadi inkişafa, həm də məşğulluğun təmin edilməsinə nail olur.

Digər fakt: cari il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçən fərdi sahibkarların sayı 914 min nəfərdən çoxdur. Qeyd edək ki, sahibkarlığın belə forması dünyada geniş yayılıb. Çünki sahibkar bu zaman vergi ödəyicisi kimi qeydiyyata düşsə də, bir sıra digər prosedurları sadə şəkildə həll edə bilir. Bu üzdən kiçik və mikrosahibkarlıq fəaliyyəti ilə məşğul olanlar hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa üstünlük verirlər. Dünyada olduğu kimi, Azərbaycanda da dövlət bu növ sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara şərait yaradır. Bu, həm işsizliyin, həm də yoxsulluğun aradan qaldırılmasında ən optimal yoldur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## XİN: "Əminik ki, Brexitdən asılı olmayaraq Azərbaycan-Britaniya əlaqələrinin inkişafı davam edəcək"

Məlum olduğu kimi, cari il yanvarın 31-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa İttifaqının (Aİ) üzvlüyündən çıxması (Brexit) rəsmiləşir və Birləşmiş Krallığın Aİ-dən çıxması ilə əlaqədar "keçid dövrü" başlayır. Həmin dövr ərzində tərəflər arasında gələcək münasibətləri tənzimləyən müvafiq sazişin razılaşdırılması və imzalanması nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda deyilir: "Bu xüsusda qeyd etmək istərdik ki, Birləşmiş Krallıq "keçid dövrü" ərzində Aİ ilə Azərbaycan arasındakı ikitərəfli sazişlərə tərəf kimi qalacaq. Eyni zamanda, Azərbaycan ilə Birləşmiş Krallıq arasında gələcək ikitərəfli münasibətlərə dair müvafiq sazişin razılaşdırılması istiqamətində iş davam etdirilir.

Azərbaycan Birləşmiş Krallıq ilə münasibətlərinin yüksələn xətt üzrə inkişafında maraqlıdır və iki ölkə arasında siyasi dialoq uğurla davam etdirilir. Böyük Britaniya Azərbaycanın enerji sahəsində ən mühüm tərəfdaşlarından biridir. Əminik ki, Brexitdən asılı olmayaraq, Azərbaycan və Böyük Britaniya arasında əməkdaşlıq əlaqələrinin inkişafı davam edəcək".

## Xələf XƏLƏFOV: "Azərbaycan bütün sahələrdə Ukrayna ilə əməkdaşlığı dərinləşdirir"

Ukrayna Prezidenti Administrasiyası rəhbərinin müavini İqor Jovkva Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfovla görüşüb.

AZƏRTAC xəbər verir ki, tərəflər Ukrayna Prezidenti Vladimir Zelenskinin ötən ilin dekabrında Azərbaycana rəsmi səfərinin yekunlarını yüksək qiymətləndiriblər. Görüşdə yaxın gələcəkdə ikitərəfli dialoqun prioritet istiqamətləri müzakirə edilib.

İqor Jovkva Ukrayna və Azərbaycanın birgə layihələr həyata keçirməsinin əhəmiyyətini qeyd edib. Əlavə edib ki, infrastruktur və energetika sahələrində həyata keçirilən layihələr daha mühümdür.

Xələf Xələfov Azərbaycanın qarşılıqlı maraq kəsb edən bütün sahələrdə Ukrayna ilə əməkdaşlığın dərinləşdirilməsi niyyətini təsdiq edib. O həmçinin iki dövlətin beynəlxalq platformada fəal əməkdaşlığını yüksək qiymətləndirib.

Görüşdə 2020-ci il yanvarın 30-31-də Kiyevdə keçirilən Azərbaycan-Ukrayna İqtisadi Əməkdaşlıq Məsələləri üzrə Hökumətlərarası Komissiyanın 12-ci iclasının gələcək nəticələrinə xüsusi diqqət yetirilib.

# Azərbaycan Dövlət Pedaqoji və Corc Vaşinqton universitetləri arasında ikili diplom proqramı imzalanıb




Yanvarın 31-də Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və ABŞ-ın Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramı üzrə sazişin imzalanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə giriş sözü ilə Təhsil naziri Ceyhun Bayramov çıxış edib. O bildirib ki, Prezident İlham Əliyevin 2018-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək ikili diplom proqramı təhsil sahəsində menecerlər hazırlanmasını nəzərdə tutur.

ABŞ tərəfi ilə aparılan danışıqlara əsasən, proqram çərçivəsində 2020-2021-ci tədris ilindən etibarən ADPU-da magistratura pilləsinə qəbul aparılacaq. Magistratura pilləsində təhsil müddətinin 2 ilinin ingilis dilində aparılması və hər il 25 tələbənin qəbulu nəzərdə tutulur. Abituriyentlər qəbul üçün ilk olaraq Dövlət İmtahan Mərkəzi, daha sonra Corc Vaşinqton Universiteti tərəfindən təşkil edilən imtahanlarda iştirak etməlidir. Tədris həm Corc Vaşinqton Universitetindən dəvət olunan, həm də yerli müəllimlər tərəfindən aparılacaq. Sonda məzunlara Azərbaycan Dövlət Pedaqoji Universitetinin və Corc Vaşinqton Universitetinin diplomları veriləcək.

Tədbirdə çıxış edən Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer, ADPU-nun rektoru Cəfər Cəfərov, ABŞ-ın ölkəmizdəki səfiri Örl Litzenberqer Azərbaycan və ABŞ arasında təhsil sahəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, ADPU və Corc Vaşinqton Universiteti arasında imzalanan ikili diplom proqramı üzrə saziş bu sahədə əlaqələrin daha da genişlənməsinə imkan yaradacaq.

Sonra ikili diplom proqramı üzrə saziş imzalanıb. Sənədi ADPU-nun rektoru Cəfər Cəfərov və Corc Vaşinqton Universitetinin Təhsil və insan inkişafı fakültəsinin dekanı Maykl Foyer imzalayıblar.

Daha sonra press-brifinq keçirilib.

# Mərkəzi Bank uçot dərəcəsini endirib

## Mərkəzi Bankın sədri Elman Rüstəmov uçot dərəcəsinin aşağı salınması barədə qərarı şərh edib

Azərbaycan Respublikası Mərkəzi Bankının idarə heyəti uçot dərəcəsinin 25 baza bəndi azaldılaraq 7,5 faizdən 7,25 faizə endirilməsi haqqında qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ±1,75 faizlik diapazonda müəyyənləşdirilib (9 faiz və 5,5 faiz).




AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov yanvarın 31-də keçirdiyi mətbuat konfransında idarə heyətinin qərarını şərh edib.

O bildirib ki, faiz dəhlizi parametrlərinə dair növbəti qərarlar makroiqtisadi fundamentalların dinamikasından və inflyasiya risklərinin reallaşma ehtimalından asılı olaraq qəbul ediləcək.

### İnflyasiyanın dinamikası və inflyasiya gözləntiləri

E.Rüstəmov bildirib ki, idarə heyətinin pul siyasətinə həsr olunmuş son iclasından keçən dövrdə illik inflyasiya tempi azalaraq hədəf diapazonunun aşağı həddinə yaxınlaşıb. Dekabrda inflyasiya gözlənildiyindən az olduğundan (0,5 faiz) illik inflyasiya tempi 2,4 faizə enib. Ümumi inflyasiyaya dinamika verən ərzaq məhsulları üzrə qiymətlərin illik artımı 4,2 faiz təşkil edib. Ərzaq inflyasiyasının hədəf diapazonunun mərkəzindən yuxarıda olması məcmu tələbin genişlənməsi ilə yanaşı, dünya ərzaq bazarında qiymətlərin artımından irəli gəlir. Dünya ərzaq qiymətləri indeksi son ayda 2,5 faiz, son 1 ildə isə 12,5 faiz artıb, o cümlədən son 1 ildə ət məhsulları üzrə dünya qiymətləri 17,9 faiz, süd məhsulları üzrə 17 faiz, bitki yağları üzrə 31 faiz, şəkər üzrə 6 faiz yüksəlib.

Qeyri-ərzaq məhsulları və xidmətlər üzrə illik bahalaşma templəri müvafiq olaraq 1 faiz və 0,9 faiz təşkil edib. Qeyri-ərzaq malları üzrə inflyasiyanın aşağı səviyyəsi məcmu təklifin daxili istehsal hesabına artması, habelə bəzi tərəfdaş ölkələrdə milli valyutaların məzənnəsinin ucuzlaşması ilə izah edilir. İnzibati qiymətlərdə artımın olmaması xidmətlər üzrə aşağı templi bahalaşmanı şərtləndirən amillərdən biridir.

Diqqətə çatdırılıb ki, faktiki inflyasiyanın artıq 8 rüb davam edən aşağı səviyyəsi və valyuta bazarında tarazlıq inflyasiya gözləntilərinin stabil qalmasını şərtləndirir. Real sektorun monitorinqinə görə inflyasiya gözləntiləri cari ilin yanvarında əvvəlki aya nəzərən qeyri-neft sənayesində və tikintidə azalıb, ticarət sahəsində isə dəyişməyib.

Yenilənmiş proqnozlar göstərir ki, mövcud makroiqtisadi meyillərin davam etməsi halında 2020-ci ildə inflyasiya hədəf intervalında (4±2 faiz) qalacaq.

### Monetar şərait

Mərkəzi Bankın sədri qeyd edib ki, 2019-cu ildə monetar şəraitin yumşalması həm pulun dəyərinin azaldılması, həm də pulun həcminin artması istiqamətində baş verib. Pul bazası 2019-cu ildəki 27,3 faizlik artımın ardınca, 2020-ci ilin yanvar ayının ötən dövründə 4,5 faiz azalıb ki, bu da əsasən vahid xəzinə hesabının qalığının dəyişimi ilə bağlı olub.

Monetar şəraitin yumşalması tədricən kredit qoyuluşlarının həcminin artması, kreditlərin müddətinin uzanması və yeni kreditlər üzrə orta faizlərin azalmasına transmissiya olunmaqdadır. Dövlət qiymətli kağızları və Mərkəzi Bankın notları üzrə faiz gəlirliliyinin aşağı düşməsi də müşahidə olunur.

### İqtisadi aktivlik

Məcmu tələbin, xüsusən də istehlakın genişlənməsi fonunda iqtisadi artımın müsbət dinamikasının davam etdiyini deyən E.Rüstəmov vurğulayıb ki, rəsmi statistikaya görə, 2019-cu ildə real iqtisadi artım 2,2 faiz təşkil edib. İqtisadi artım qeyri-neft sektorunda 3,5 faiz olub ki, bu da əsasən ticari sektordan qaynaqlanıb. Belə ki, ticari sektorda artım 10,5 faiz, qeyri-ticari sektorda isə 2,2 faiz olub.

Real sektor monitorinqinin nəticələrinə əsasən, biznes inam indeksi cari ilin yanvarında ötən ayla müqayisədə qeyri-neft sənayesində və ticarət sektorunda artım, tikinti sektorunda sabit səviyyədə qalıb.

Beynəlxalq konyunktur Azərbaycan üçün əlverişli olaraq qalır. Neftin 1 barelinin orta qiyməti 2019-cu ildə 64,2 dollar, 2020-ci ilin yanvarında 63,7 dollar təşkil edib. 2019-cu ildə qeyri-neft ixracı 15,7 faiz artaraq monetar qızıl idxalı nəzərə alınmadan qeyri-neft idxalının artımını (6,6 faiz) 2 dəfədən çox üstələyib.

Ölkənin strateji valyuta ehtiyatları 2019-cu ildəki 14 faizlik artımın ardınca, 2020-ci ilin yanvar ayının ötən dövründə 1,9 faiz (986 milyon dollar) artaraq 52 milyard dolları ötüb.

### İnflyasiya riskləri

Mərkəzi Bankın sədri deyib ki, qısamüddətli horizontda inflyasiya riskləri balansında sabitləşdirici amillər üstünlüyünü qorumaqdadır. Bu, əsasən əlverişli beynəlxalq konyunktur və qeyri-neft ixracının genişlənməsinin valyuta bazarına və gözləntilərə təsirləri ilə bağlıdır. Lakin digər tərəfdən dövlət büdcəsinin cari xərclərinin və pul kütləsinin əhəmiyyətli artması, habelə dünya ərzaq qiymətlərinin yüksəlməsi müəyyən zaman intervalı ilə qiymətlərə təsir göstərə bilər. Qlobal iqtisadi aktivlikdəki səngimə ilə bağlı beynəlxalq əmtəə və maliyyə bazarlarındakı dəyişkənlik daxili makroiqtisadi vəziyyətə təsir potensialını saxlayır. Son vaxtlar koronavirusun təsiri ilə dünyanın ikinci böyük iqtisadiyyatında iqtisadi artımın zəifləməsi ehtimalı dünya əmtəə bazarlarında dəyişkənlik risklərini artırır.

Azərbaycan Mərkəzi Bankı növbəti pul siyasəti qərarlarını qəbul edərkən monetar şəraitin makroiqtisadi təsirlərini, maliyyə-pul bazarlarının müxtəlif seqmentlərində faizlərin dinamikasını, faktiki və proqnozlaşdırılmış inflyasiyanın səviyyəsini nəzərə alacaq.

Bu qərar yanvarın 31-dən qüvvəyə minir. Mərkəzi Bankın idarə heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı barədə məlumat martın 19-da ictimaiyyətə açıqlanacaq.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## 9 fevral Milli Məclisə seçkilər günüdür

# Bakıda polis əməkdaşları və dairə seçki komissiyalarının sədrləri üçün seminar-müşavirə keçirilib

Fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) və Daxili İşlər Nazirliyinin birgə təşkil etdiyi polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunan seminar-müşavirələrin yekun tədbiri keçirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Şəhər Baş Polis İdarəsinin inzibati binasında təşkil olunan tədbirdə MSK üzvü İlham Məmmədov, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini Əziz Baqişev, dairə seçki komissiyalarının sədrləri, o cümlədən şəhər və rayon polis orqanlarının, həmçinin ATƏT-in beynəlxalq müşahidəçilər missiyasının nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini Əziz Baqişev bildirib ki, Milli Məclisə seçkilərlə əlaqədar respublikada ictimai təhlükəsizlik və ictimai qaydanın təmin olunması məqsədilə Daxili İşlər Nazirliyində xüsusi tədbirlər planı hazırlanaraq icraya yönəldilib və bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilir. "Maarifləndirmə tədbirləri çərçivəsində Gəncə, Şirvan, Şəkidə ərazi polis orqanlarının və dairə seçki komissiyalarının sədrləri ilə zona müşavirələri təşkil olunub. Bu gün keçirilən müşavirənin əsas məqsədi təbliğat-təşviqat kampaniyası dövründə, seçki günü, eləcə də seçkidən sonrakı proseslər, polis əməkdaşlarının fəaliyyətinin daha da təkmilləşdirilməsi, ərazi polis orqanlarının dairə seçki məntəqələri ilə qarşılıqlı əlaqələrinin təşkil edilməsindən ibarətdir" deyə Əziz Baqişev bildirib.

O qeyd edib ki, seçkilərin sabitlik və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının qarşısına qoyulmuş vəzifələrin nümunəvi qaydada yerinə yetirilməsi xüsusi əhəmiyyət kəsb edir. Diqqətə çatdırılıb ki, bu mühüm dövlət tədbirinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsində, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsində mühüm amillərdən biri də ictimai asayişin etibarlı qorunmasıdır. Seçki kampaniyası dövründə və seçki günü vətəndaşların qanunla müəyyən olunmuş hüquqlarının pozulması, seçki komissiyalarına və onların üzvlərinə təzyiq və təsir göstərilməsi, habelə digər hüquqazidd hərəkətlərin aradan qaldırılması ilə bağlı aidiyyəti dövlət qurumları ilə yanaşı, daxili işlər orqanları qarşısında da mühüm vəzifələr durur. Bu məqsədlə seçkilərlə əlaqədar asayişin mühafizəsi, ictimai qaydaların qorunması və təhlükəsizliyin təmin olunması ilə bağlı Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi tədbirlər planı təsdiq edilib və icrası nəzarətə götürülüb.

Əziz Baqişev əlavə edib ki, seçki günü polis əməkdaşlarının seçki məntəqəsinə yalnız xüsusi geyim formasında və məntəqə seçki komissiyasının qərarına əsasən ictimai qaydanın bərpa edilməsi məqsədilə gəlməsinə icazə veriləcək, ictimai qayda bərpa olunduqdan sonra onlar dərhal məntəqədən çıxarılacaq.

Sonra çıxış edən MSK üzvü İlham Məmmədov bildirib ki, komissiya Milli Məclisə seçkilərlə əlaqədar silsilə maarifləndirmə tədbirləri keçirir. Onun sözlərinə görə, bu tədbirlərdən biri də Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyinin birgə maarifləndirmə proqramı olan Azərbaycan polisinin seçkilərdə rolu, hüquq və vəzifələri mövzusunda keçirilən seminar-müşavirələrdir. "Respublikanın regionlarında Daxili İşlər Nazirliyi ilə birgə keçirilən tədbirlərin son mərhələsini Bakı Şəhər Baş Polis İdarəsində paytaxtda fəaliyyət göstərən rayon polis orqanlarının və müvafiq dairə seçki komissiyaları sədrləri üçün keçiririk. Tədbirdə əsas məqsəd qarşıya çıxan problemlərin həlli yolları və polis orqanlarının səsvermə günü, ondan öncə və sonrakı funksiyalarının müzakirəsidir" deyə MSK üzvü əlavə edib.

Daha sonra MSK katibliyinin müdiri İlqar Əlizadə "seçki qanunvericiliyi, seçki sistemi, seçki komissiyaları sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri. Seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları" və "Seçki subyektləri, onların hüquq və vəzifələri, fəaliyyətlərinə qanunsuz müdaxilələrin yolverilməzliyi. Seçki prosesi iştirakçılarının hüquqlarının qorunması sahəsində ümumi tədbirlər" mövzularında çıxış edib.

Qeyd edək ki, tədbirdə seçki sənədlərinin mühafizəsi, seçki sənədlərinin dairə seçki komissiyalarına, oradan məntəqə seçki komissiyalarına çatdırılması və səsvermə günü məntəqələrin mühafizəsi məsələləri müzakirə olunub. Vurğulanıb ki, səsvermədən sonra ölkədə ictimai sabitliyin, qaydanın bərqərar olunması Azərbaycan polisinin funksional vəzifələrindəndir.

Tədbir müzakirələrlə başa çatıb.

# MDB müşahidə missiyası Azərbaycanda seçki prosesini izləməkdə davam edir

MDB müşahidə missiyasının üzvləri Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Şəkidəki seçki məntəqələri və dairə seçki komissiyalarının işi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, bu barədə Secki-2020.az saytına MDB müşahidə missiyasının qərargahından məlumat daxil olub.

Seçki komissiyalarının üzvləri müşahidəçilərə seçici siyahılarının yenilənməsi, komissiya üzvlərinin təlimi, habelə səsvermə günü məntəqənin ünvanı, səsvermənin vaxtı və siyahıdakı seçicinin nömrəsi barədə bildirişlərin göndərilməsi barədə məlumat veriblər. Missiya nümayəndələri seçki komissiyalarının iclaslarının protokolları və seçkilərlə əlaqəli digər sənədlərlə tanış olmaq imkanı əldə ediblər.

Müşahidəçilər qeyd edirlər ki, dairə və məntəqə seçki komissiyalarının rəhbərliyi və üzvləri ünsiyyətə açıqdırlar, seçki kampaniyasının ötən dövrü barədə lazımi şəkildə məlumatlandırılıblar. Komissiyaların binaları ofis avadanlığı, ehtiyat enerji mənbələri, lazımi metodiki ədəbiyyat və seçkilərlə bağlı əyani vəsaitlərlə təmin edilib. Demokratiya, parlamentarizm və MDB-yə üzv olan dövlətlərin vətəndaşlarının seçki hüquqlarına riayət edilməsinin monitorinqi üzrə beynəlxalq institut və missiyanın ekspertləri Azərbaycanın seçki qanunvericiliyinin təhlilini də artıq yekunlaşdırıblar. Missiya yekun sənəddə qanunvericiliklə bağlı son rəyini səsvermədən bir gün sonra açıqlayacaq.

Bildirilir ki, MDB müşahidə missiyasının formalaşdırılması başa çatıb. Ümumilikdə 252 müşahidəçinin təmsil olunduğu missiyanın tərkibinə Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Türkmənistandan olan, həmçinin MDB-yə üzv olan ölkələrin Parlamentlərarası Assambleyası, Belarus və Rusiya Parlamentlər İttifaqının və MDB İcraiyyə Komitəsinin nümayəndələri daxildirlər.

# *Bilal DÜNDAR:* "Azərbaycanda maraqlı və rəqabətyönümlü seçki mühiti mövcuddur"



Azərbaycan demokratik inkişaf yolunda mühüm nailiyyətlər qazanıb. Hələ 1918-ci ildə Şərqdə ilk demokratik respublikanı məhz azərbaycanlılar qurublar.

Bu baxımdan qardaş Azərbaycan xalqı demokratik dəyərləri həmişə yüksək qiymətləndirib. Qarşıdan gələn parlament seçkiləri də demokratik inkişaf yolunda mühüm addım olacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Secki-2020.az saytına açıqlamasında Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının (TADF) sədri Bilal Dündar bildirib.

O qeyd edib ki, bu gün Azərbaycan inkişafının növbəti mərhələsinə qədəm qoyub, ölkədə ciddi islahatlar aparılır.

Bilal Dündar qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan islahatlar insanların həyat səviyyəsinin yüksəldilməsinə, idarəetmədə şəffaflığın təmin olunmasına, ölkənin davamlı inkişafına xidmət edir. Bu, Azərbaycanın gələcəyi üçün olduqca zəruridir. Əminəm ki, formalaşacaq yeni parlamentdə təmsil olunan deputatlar da bu işə öz töhfələrini verəcəklər.

Azərbaycanda seçki prosesini izlədiyini deyən TADF sədri ölkəmizdə maraqlı və rəqabətyönümlü seçki mühitinin mövcud olduğunu söyləyib. O, parlament seçkilərinin nəticələrinin Azərbaycan xalqının iradəsini ifadə edəcəyinə əminliyini vurğulayıb.

# Azərbaycanda seçkiləri izləyəcək AŞ PA müşahidə missiyasının rəhbəri müəyyənləşib

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) büro iclasında fevralın 9-da Azərbaycanda keçiriləcək parlament seçkilərini izləmək üçün göndəriləcək müşahidə missiyasının rəhbəri təsdiqlənib.



AZƏRTAC Secki-2020.az saytına istinadla xəbər verir ki, Frank Şvabe müşahidə missiyasının rəhbəri təyin olunub.

AŞ PA-dakı beş siyasi qrupun hər birini təmsil edən müşahidə heyəti fevralın 6-dan 10-dək parlament seçkilərini izləmək üçün Azərbaycana gələcək.

# Şəffaf şərait yaradılıb

Ölkəmiz üçün böyük əhəmiyyət daşıyan parlament seçkiləri yaxınlaşdıqca məntəqələrdə canlanma da artır. Goranboy rayonundakı 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsində bunun şahidi olduq. Dairə seçki komissiyasının sədri Faiq Məhərrəmov Milli Məclisə seçkilərə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını diqqətə çatdırdı. O bildirdi ki, bu dairədə 9 namizəd deputat mandatı əldə etmək uğrunda mübarizə aparır. Namizədlərin hamısına təbliğat kampaniyalarını aparmaqları üçün eyni şərait yaradılmış, bunun üçün açıq və qapalı yerlər ayrılmışdır. Bundan başqa, hər bir seçki məntəqəsinin önündə təşviqat materiallarının asılması üçün lövhələr quraşdırılmışdır.



Dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində bilik, bacarıq və vərdişlərini daha da yüksəltmək məqsədilə müvafiq işlər görülüb.

Seçkiləri izləmək üçün dairədə 608 müşahidəçi qeydiyyatdan keçib. Seçkilərin şəffaf və demokratik keçirilməsi üçün məntəqələrin hamısı texniki avadanlıqla, məlumat kitabçaları ilə tam təchiz olunub. 6 məntəqədə vebkamera quraşdırılıb.

Səhhəti ilə bağlı məntəqələrə gələ bilməyən vətəndaşların siyahısı tərtib edilib, onların səsvermədə iştirakını təmin etmək üçün daşınan seçki qutuları da hazırlanıb. Bu dairəni əhatə edən məntəqələrdə 20 nəfər ilk dəfə səs verəcək. Onlarla görüş keçirilmiş, parlament seçkilərinin ölkəmizin həyatında böyük əhəmiyyət daşıdığı və bu siyasi kampaniyada hər bir vətəndaşın fəal iştirakının vacibliyi barədə söhbətlər aparılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qanunvericiliyə ciddi əməl olunur

*Əvvəli 1-ci səh.*



Dairə seçki komissiyasının sədri Şakir Əliyev söhbət zamanı onu da qeyd etdi ki, seçkilərə hazırlıq işlərində Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi təqvim planının tələblərinə, mövcud qanunvericiliyə ciddi əməl olunur. Məqsəd qarşıdakı seçkilərin şəffaf və demokratik qaydalar əsasında keçirilməsinə etibarlı zəmin yaratmaqdır.

Söhbətdən o da məlum oldu ki, 93 saylı dairə 50 seçki məntəqəsini əhatə edir. Məntəqələr üzrə seçici siyahılarına səsvermə hüququ olan 44 min 244 nəfərin adı daxil edilmişdir. Onların 610 nəfəri ilk dəfə səs verənlərdir. Dairə seçki komissiyası 6 nəfərin deputatlığa namizədliyini qeydə almışdır. Namizədlərin seçkiqabağı təbliğat və təşviqat kampaniyası seçki qanunvericiliyinə uyğun qaydada davam edir. Namizədlərin seçicilərlə görüşlərinin keçirilməsi üçün ərazilərdə açıq və qapalı yerlər müəyyənləşdirilmiş, bu barədə özlərinə zəruri məlumatlar verilmişdir. Hər bir namizədə bərabər şərait yaradılmışdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***




# İxracda aqrar sektor ikinciliyi əldən vermir




*Əvvəli 1-ci səh.*

Bununla belə, köhnə bazarlarda daha əminliklə oturmaq üçün tədbirlər görülür - qeyd etdiyimiz kimi, aqrar sektorda geniş islahatlar aparılır, ənənəvi məhsulların istehsalı dövlət səviyyəsində stimullaşdırılır, yüz hektarlarla sahələrdə yeni istixana kompleksləri yaradılır, onlar üçün maliyyə vəsaiti ayrılır.

Aqrar sektorda ixracın nəbzini tutmaqda "Azexport" portalı əvəzsiz rol oynayır. Bura daxil olan sifarişlər marketinq üçün əhəmiyyətli vasitədir. Əvvəl kortəbii görülən işlər indi bu portal vasitəsilə müasir tələblər səviyyəsində həyata keçirilir - istehsalçılara məhsullar barədə məlumatlar verilir, xaricdən sifarişlər alınır və s. Portal dünya bazarında hansı məhsula daha çox tələbat olduğunu görməyə və bazarın tələblərinə uyğunlaşmağa kömək edir. Bütün bunlar kənd təsərrüfatı məhsullarının ixracına əlavə təkan verir.

Statistikaya nəzər salaq: 2019-cu ilin yanvar-noyabr aylarında 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı - 9,9, şəkər - 49,9, meyvə və tərəvəz şirələri - 31,1, çay - 6,5, meyvə və tərəvəz konservləri - 5, marqarin və qida uçun yararlı digər qarışıqlar - 26,9 faiz, tütün və pambıq lifinin hər biri 1,6 dəfə artmışdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin keçən ilin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərin daha qətiyyətlə davam etdiriləcəyini bildirmiş, o cümlədən üzümçülüyün və şərabçılığın problemlərinin ciddi təhlil edilməsinin zəruriliyindən danışmışdır: "İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar - tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı bizdə artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir".

Ölkədə gedən bütün islahatlar Prezidentin gərgin əməyi sayəsində reallaşır. Amma dövlət başçısı belə hesab edir ki, hər bir fermer öz sahəsində yenilikçi olmalı, bazarın yeni çağırışlarına köklənməyi bacarmalı, dünya bazarına çıxmaq üçün səylər göstərməlidir: "Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaq. Onlar özləri getməlidirlər, bazarları axtarmalıdırlar, kontraktlar imzalamalıdırlar, təmaslar qurmalıdırlar. Biz hətta xarici ölkələrin televiziyalarında kənd təsərrüfatı məhsullarının reklamını da dövlət hesabına edirik. Onu da etmirlər. Yaxşı, indi bir az hərəkətə gəlsinlər. Dövlət bu qədər səy göstərir, dəstək verir, vəsait ayırır, siyasi dəstək göstərir".

İxracı stimullaşdıran ən vacib amillərdən biri də qonşu ölkələrlə ticarət dövriyyəsinin artırılmasıdır. Təsadüfi deyil ki, 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə qonşu ölkələrlə ticarət dövriyyəsinin artmasını dövlət başçısı müsbət hal kimi dəyərləndirmişdir: "Bütün qonşu ölkələrlə ticarət dövriyyəsi artıb. Türkiyə ilə bizim ticarət dövriyyəmiz keçən il 4 milyard dollara çatıbdır. Bu, böyük artımdır. Ticarət dövriyyəmiz Rusiya ilə 20-25 faiz, İranla 30 faiz artıbdır. Gürcüstanla da ticarət dövriyyəsi artıb. Həm ikitərəfli formatda, həm çoxtərəfli formatda biz uğurla fəaliyyət göstəririk".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## "Azərbaycanın kəşfi: biznes imkanlarının yunan ictimaiyyətinə tanıdılması" *mövzusunda biznes forum keçirilib*

Afinada Yunanıstan Sahibkarlar Federasiyası, Yunanıstan Milli İnvestisiya və Ticarətin Təşviqi Agentliyi və Azərbaycanın bu ölkədəki səfirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanın kəşfi: biznes imkanlarının yunan ictimaiyyətinə tanıdılması" mövzusunda biznes forum keçirilib.

Forumda ölkəmizi Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) təmsil edib. Forumun açılış mərasimində Yunanıstan Sahibkarlar Federasiyasının vitse-prezidenti Konstantinos Bitsios, Milli İnvestisiya və Ticarətin Təşviqi Agentliyinin icraçı direktoru Georgios Filiopulos, Azərbaycanın Yunanıstandakı fövqəladə və səlahiyyətli səfiri Anar Hüseynov çıxış edərək iki ölkə arasında siyasi-iqtisadi əlaqələrin mövcud vəziyyəti və gələcək perspektivləri barədə fikirlərini bölüşüblər. Bildirilib ki, belə tədbirlər hər iki ölkənin biznes strukturlarının nümayəndələrinə mövcud imkanlar barədə daha çox məlumat verilməsinə və gələcək əməkdaşlığın qurulmasına zəmin yaradır.

Forum çərçivəsində baş tutan "Azərbaycanda biznes mühiti" panelində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC idarə heyətinin sədri Leyla Məmmədova təqdimatla çıxış edib, Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatlar və aqrar sahənin inkişafında həyata keçirilən tədbirlər barədə məlumat verib. Qeyd edib ki, yerli məhsulların tanıdılmasında biznes missiyaların əhəmiyyəti böyükdür: "Yunanıstan da Azərbaycan kimi kənd təsərrüfatı sahəsinə xüsusi diqqət ayırır. Bu oxşar cəhət ölkələrimiz arasında aqrar sahədə daha sıx əməkdaşlıq üçün zəmin yaradır. Hazırda Azərbaycanda bu sahədə aparılan islahatlar və dövlətin xüsusi diqqəti nəticəsində kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edir. Azərbaycanın ixrac potensialı hər il artmaqdadır. Azərbaycan istehsalı olan kənd təsərrüfatı məhsullarını həm təzə halda, həm də emal olunmuş şəkildə idxal etmək mümkündür. Biz Yunanıstanın Azərbaycan məhsullarının ixrac olunduğu ölkələr sırasında xüsusi yer tutmasını istəyirik. Ümid edirəm ki, həyata keçirdiyimiz bu biznes missiya uğurlu olacaq və ölkələrimiz arasında yeni işgüzar əməkdaşlıqlara öz töhfəsini verəcək".

Forumda iştirak edən yunan sahibkarlarına müraciət edən Leyla Məmmədova onları Azərbaycanda aqrar sahəyə investisiya yatırmağa çağırıb. Bildirib ki, ölkəmizdə investisiya üçün əlverişli mühit var və dövlət tərəfindən mütəmadi olaraq biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

Forum çərçivəsində təşkil edilən sərgidə "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən yerli fermer məhsullarının tanıdılması məqsədilə zəfəran, zəfəran cemi, çay, bal, düyü, şərab, xurma, narşərab, fındıq, müxtəlif mürəbbələr, eləcə də "Kənddən şəhərə" brend adı altında qablaşdırılan Zaqatala çayı, düyü unu, düyü, noxud, bal və digər qida məhsullarının sərgi və dequstasiyası da təşkil olunmuşdur.

## Alimlər fermerləri fəal əməkdaşlığa dəvət edirlər

Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun təşkilatçılığı ilə "Taxıl istehsalında mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzusunda elmi-praktiki konfrans keçirilib.

İnstitutun direktoru Faiq Xudayev bildirib ki, fermerlərin qarşılaşdığı çətinliklərin aradan qaldırılması, onlara göstərilən məsləhət-informasiya xidmətinin yüksəldilməsi vacib hədəflərdəndir. Vurğulanıb ki, konfrans ölkədə taxılçılıq sahəsində qarşıda duran vəzifələr və gələcəkdə işlərin düzgün qurulmasında istiqamətləri müəyyən edəcək: "Buna görə də konfransda iştirak edən toxumçu fermerlərlər mövcud çətinliklərin həlli istiqamətində Əkinçilik Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlığa maraq göstərməlidirlər".

Tədbirdə çıxış edən Aqrar Elm və İnnovasiya Mərkəzinin direktor müavini Fərman Kərimov müasir dövrdə alimlərlə fermerlərin birgə fəaliyyət göstərməsinin çox vacib olduğunu qeyd edib: "Alimlər fermerlərin yanında olmalı, elmdə qazanılan nailiyyətləri fermerlərə tövsiyə etməli, fermerlər isə yüksək və keyfiyyətli məhsul əldə etmək üçün bu tövsiyələrdən yararlanmalıdırlar".

Konfransda Şamaxı, Ağsu, Xaçmaz, Qusar, İsmayıllı, Beyləqan rayonlarında fəaliyyət göstərən toxumçular, eləcə də taxıl və toxum istehsalı ilə məşğul olan şirkət nümayəndələri çıxış edərək birgə əməkdaşlığın qurulması istiqamətində təkliflərini səsləndiriblər.

Sonda iştirakçılara Əkinçilik Elmi-Tədqiqat İnstitutunun rayonlaşmış bitki sortları haqqında tanıtım çarxı nümayiş etdirilib.

## Daşkəsənin ailə kəndli və ev təsərrüfatlarında 835 ton məhsul istehsal edilib

Keçən il Daşkəsən rayonunda fərdi sahibkar təsərrüfatları üzrə 28 hektar dənli və dənli paxlalı bitkilər sahəsindən 56 ton məhsul toplanılıb.

Daşkəsən Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, 2019-cu ildə 8 hektar sahədən hektara 250 sentner olmaqla, 200 ton kartof yığılıb. Ailə kəndli və ev təsərrüfatları üzrə isə 464 hektar sahədən dənli və dənli paxlalı bitkilər toplanıb və hektara 17,9 sentner olmaqla, 835 ton məhsul istehsal edilib. Məhsuldarlıq dövründə 1114 hektar sahədən 11150 ton kartof, 100 hektar sahədən 966 ton tərəvəz, 160 hektar sahədən 300 ton yem bitkiləri toplanılıb.

### Yurd yeri

Bir gecədə yamaclar, dərələr donunu dəyişdi, ağ bəyaza büründü. Tut, söyüd ağacları başını əydi. Çardaqlardan saçaq-saçaq buz asıldı. Belə şaxtalı bir gündə rayon mərkəzindən 17 kilometr aralıda Çayrud kəndinə gedirik. Mənzil yaxın, yol rahat. Artıq Zuvandçayın üstündəki körpüdən iki kilometr asfalt yol da çəkilib.



## Dağlar gözəli Çayrud

Çayruda gedən bu yol 1954-cü ilin baharında çəkilib. Həmin günlərdə Azərbaycan Ali Sovetinə bu kənddəki dairədən deputatlığa namizədliyi irəli sürülən xalq şairi Süleyman Rüstəm seçiciləri ilə görüşə gəlib, yola daş döşəyən qızların hünərinə heyran qalaraq yazmışdır:

*Qəşəng talış qızları daş yığır, daş tökürlər,*
*Dodaqlarında nəğmə Çayruda yol çəkirlər.*
*Fəxr edirəm dağların qəşəng gözəlləriylə,*
*Can verir dilsiz daşa onlar öz əlləriylə.*

Çayrudda 265 ailə yaşayır. Həyətlər bağ-bağçalı, evlər aynabəndli. Kəndin əkin yerləri az olsa da, hər qarışından istifadə edilir. Taxıl əkilir, kartof becərilir, tərəvəz yetişdirilir. Burada mal-qarasız həyat tapılmaz.

Çayrud bölgədə alimləri, pedaqoqları, təbibləri, incəsənət xadimləri, qələm sahibləri, iş adamları ilə də tanınır. Onlar ilk təhsillərini kənddəki orta məktəblərdə alıblar. İki məktəbdə çalışan 36 müəllimin hamısı ali təhsillidir, bu ocağın övladlarıdır. Ölkənin universitet və texnikumlarında 25 çayrudlu gənc oxuyur. İbtidai musiqi məktəbi 20 ildir fəaliyyət göstərir. Uşaq bağçası hər səhər qapılarını körpələrin üzünə açır.

Kənd xəstəxanası Lerikin ilk sağlamlıq ocaqlarından biridir. Bu səhiyyə ocağı 9 qonşu kəndin əhalisinə də xidmət göstərir. Respublikada tanınmış terapevt mərhum Mirzəcan Səfərov yarım əsr xəstəxanaya rəhbərlik etmiş, xatirəsi ürəklərdə qalmışdır.

Çayrudun mədəniyyət işçiləri talış mahnılarının və rəqslərinin təbliğatçılarıdır. Sulduz Hüseynovun bədii rəhbəri olduğu "Cəngəsər" folklor qrupunun çıxışları qonşu rayonlarda keçirilən tədbirlərdə də maraqla qarşılanır. Kənd kitabxanasının xidmətindən oxucular razıdır. Hər məhəllədə ərzaq və sənaye malları dükanları açılıb.

Kəndə qaz kəməri çəkiləndən meşələrdən balta səsi kəsilib. Evlər istilik sistemi ilə qızdırılır, elektrik enerjisindən səmərəli istifadə olunur. Çayruddan Bakı və Sumqayıt şəhərlərinə avtobus marşrutu açılıb.

Kəndin mərkəzindəki istirahət parkı müharibə illərində el ağsaqqalı Hacı Abdullayevin təşəbbüsü ilə salınıb. Parkda 1941-1945-ci illər müharibəsində həlak olan 117 çayrudlu igid oğlanın şərəfinə abidə ucaldılıb. Burada oturacaqlar qoyulub, bəzək ağacları və gül kolları əkilib, Qarabağ şəhidlərinin uyuduğu məzarlıq səliqə-sahmana salınıb, yeni ailə həyatı quran cavanların and yerinə çevrilib.

Çayrudun ziyalıları 9 nəfərdən ibarət ictimai birlik yaradıblar. Birlik üzvlərinin təşəbbüsü ilə iməcliklər keçirilir, məhəllələrdə səliqə-sahman yaradılır, ağac əkilir, ahıllara yardım edilir, kəndarası yollar təmir olunur, divarlar daşdan hörülür. Məhz onların köməyi ilə mərkəzi küçədə dəmir dirəklər basdırılmış, elektrik lampaları asılmışdır.

Birliyin fəaliyyətinə kənddən və ölkəmizin sərhədlərindən kənarda yaşayan çayrudlular da köməklərini əsirgəmir, vəsait köçürürlər, inşaat materialları, avadanlıq göndərirlər. Bu təşəbbüsə qoşulanların sayı getdikcə artır.

Kənd abadlaşdıqca sakinlərinin sayı da artır. Vaxtilə qonşu rayonlara köçənlərin qayıdışı başlanıb. Onlar ata-baba ocağına dönür, yurd salır, ev-eşik tikirlər. Ağsaqqal Nəriman Rəfiyevin dediyi kimi, bu, müstəqillik illərinin dağ kəndlərinə verdiyi töhfədir, sabitliyin, əmin-amanlığın bəhrəsidir.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***Əməkdar jurnalist***

# Sərhəd kəndi qarşı tərəfin gözdağına çevrilib

Qazaxın Cəfərli kəndinin Ermənistanla sərhəddə yerləşməsinə, müharibənin ağrı-acılarını çox çəkməsinə baxmayaraq, bu gün inkişafından da qalmır. Dövlət qayğısı ilə əhatə olunmuş sakinlər əkinçilik və heyvandarlıqla fəal məşğul olurlar. Mövcud olan problemlərin həlli kənd sakinlərini öz yurd-yuvalarına daha möhkəm bağlayır.



Cəfərli kənd icra nümayəndəsi Şahin Mustafayev deyir ki, son 3 ildən artıq bir vaxtda on illərə bərabər işlər görülmüşdür: "Hazırda kənddə 356 təsərrüfat olmaqla, təxminən 1500 nəfər əhali yaşayır. Rayon mərkəzindən 14 kilometr məsafədə yerləşən nümayəndəliyin ərazisində iki müasir tipli məktəb, iki körpələr evi-uşaq bağçası, iki kitabxana, iki klub, bir poçt binası, bir həkim məntəqəsi, bir feldşer-mama məntəqəsi və bir elektron ATS fəaliyyət göstərir".

Əvvəlki illərdə olduğu kimi, keçən il də kənddə bütün sahələr üzrə uğurlar əldə edilmişdir. Belə ki, kümçülər nəzərdə tutulduğundan çox - 326 kiloqram barama təhvil vermişlər. Kənddə tütünçülük də inkişaf etdirilir. Keçən il 4 hektar sahədə tütün əkən təsərrüfat sahibləri 7000 kiloqram məhsul toplayaraq Şəkidəki Tütün Kombinatına təhvil vermişlər. Yaxın zamanlarda qurudulmuş daha 2 ton tütünün təhvil verilməsi nəzərdə tutulur. Kənddə heyvandarlıq da inkişaf edir. Cari ilin əvvəlinə olan məlumata görə, kənddə 700 qaramal, 3200 başdan çox davar var.

Məlum olduğu kimi, ərazisinin bir hissəsi Ermənistanla həmsərhəddə yerləşdiyi və torpaqların bir hissəsi işğal altında olduğu üçün kənddə torpaq islahatı aparılmamışdır.

Buna görə də torpaq sahələri kənd əhalisinə müvəqqəti istifadə üçün icarəyə verilmişdir. Dəmyə şəraitində yerləşdiyindən həmin sahələrdən ancaq taxılçılıq və təbii biçənək kimi istifadə edilir. Keçən il taxılçılar cari ilin məhsulu üçün 268 hektarda buğda, 132 hektarda arpa, 36 hektarda vələmir, 20 hektarda yonca əkmişlər. Eyni zamanda kənd ərazisindən kartof əkini üçün Qazax Konserv zavoduna 100 hektar sahə ayrılmışdır. Bu sahələrin əkilib-becərilməsində əsas işçi qüvvəsi kənd sakinləridir.

Kəndin məhsul istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsindən subsidiyalar ödənilir. Təkcə keçən il 200 ailəyə 40,3 min manatdan çox vəsait verilmişdir.

Rayon rəhbərliyi tez-tez kənddə olur, mövcud problemlərin həlli üçün tədbirlər görür. Bu yaxınlarda keçirilən görüş zamanı sakinlərin ərazidən məişət tullantılarının götürülməsi barədə təkliflərinə qayğı ilə yanaşılmış və qısa vaxt ərzində məsələ öz həllini tapmışdır.

Kəndin su problemi də həll olunub. Belə ki, Cəfərli kəndinin aşağı hissəsində yerləşən artezian quyusunun yanında qurulmuş nasoslarla kənddəki bütün evlərə gündəlik içməli su verilir. Rayon rəhbərliyinin dəstəyi ilə ən hündür yerdə tutumu 25 ton olan 2 dəmir çən quraşdırılmış və həmin çəndən bütün evlərə su xətti çəkilmişdir. Evlərə gedən dəmir borular polietilen borularla əvəz edilmişdir. Bu yaxınlarda kənddə, həmçinin bir artezian quyusu qazılaraq istifadəyə verilmişdur. Yaxın zamanlarda isə daha bir artezian quyusunun qazılmasına hazırlıq işləri görülür. Bunlardan əlavə, 8 ailəyə həyətlərini suvarmaq üçün borular verilmişdir.

Kəndin elektrik enerjisi ilə təminatında da bir sıra yenilənmə işləri aparılır. Hazırda Cəfərli və Bala Cəfərli kəndlərində elektrik təchizatı sistemində yenilənmə işlərinə başlanılmışdır. Artıq Cəfərlidə bu iş başa çatdırılmış, Bala Cəfərlidə isə SİP kabelləşmə davam etdirilir. Kabelləşməsi başa çatmış evlərdə köhnə tipli elektrik sayğacları yeniləri ilə əvəz olunmuşdur.

Ümumiyyətlə, kənd sakinlərinin bütün problemləri vaxtında həll edilir. Yalnız keçən il 24 evin dam örtüyü dəyişdirilmiş, 16 ailəyə birdəfəlik maddi yardım olunmuşdur. Cəfərli kəndinin sakini, şəhid anası Sədaqət Almazovanın həyətinə hasar çəkilməsi üçün 1600 mişar daşı, 30 kisə sement və bir maşın qum verilmişdir. I qrup əlil Məmməd Qarasaqqalov isə evinin təmiri üçün 3 qapı, 20 kisə sement və bir maşın qumla təmin edilmişdir. Eyni zamanda Bala Cəfərli kəndində yaşayan hər bir ailəyə 250 kiloqram toxumluq buğda və xeyli gübrə verilmişdir.

Qeyd edək ki, kənd əhalisinin uzun illər həsrətində olduğu yol problemi də həll edilmişdir. Ölkə başçısının sərəncamına əsasən, ayrılmış vəsait hesabına kəndarası yollar təmir olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## AİK "Könüllülər ili" ilə əlaqədar tədbirlər planı hazırlayıb

"Aqrar İnkişaf Könüllüləri" (AİK) İctimai Birliyi "Könüllülər ili" ilə əlaqədar görüşlərə başlayıb. İlk görüşdə AİK-in regional nümayəndəliklərinin təmsilçiləri iştirak ediblər.

Tədbirin məqsədi 2019-cu ildə görülən işləri qiymətləndirmək, Prezident İlham Əliyevin 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə bağlı sərəncamına uyğun olaraq, il ərzində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, yeni layihə və təşəbbüsləri müzakirə etməkdir.

Tədbiri giriş sözü ilə açan Kənd Təsərrüfatı Nazirliyinin məsul işçisi Elvin Paşayev ölkədə könüllülüyün inkişafı, gənclərin bu hərəkata cəlb olunması və ümumilikdə onların hərtərəfli inkişafı üçün həyata keçirilən tədbirlər barədə məlumat verib. O, dövlət tərəfindən insan kapitalının inkişafına göstərilən dəstək fonunda gənclərin şəxsi inkişaf meyillərinin, bilik və bacarıqlarının daha da artırılmasının vacib olduğunu qeyd edib və gəncləri bu istiqamətdə fəal olmağa çağırıb.

Görüşdə çıxış edən AİK-in sədri Kamran Əliyev təşkilatın yarandığı gündən indiyədək həyata keçirilən layihələr, ölkənin 50 regionunda fəaliyyət göstərən nümayəndəliklərin reallaşdırdığı tədbirlər barədə məlumat verib.

Daha sonra görüşdə AİK-in "Könüllülər ili" ilə əlaqədar hazırlanan xüsusi tədbirlər planı açıqlanıb.

## KTN-nin son 6 ayda keçirdiyi təlimlərə 40 min nəfər cəlb olunub

Prezident İlham Əliyevin 2019-cu il 27 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın tətbiqi ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyi (KTN) tərəfindən son 6 ayda keçirilən təlimlərdə 39921 nəfər iştirak etmişdir.

Avqust ayından başlamış təlimlərin 2697-si 2019-cu ildə, 91-i isə cari ildə keçirilmişdir. Ötən il keçirilən təlimlərə 38709, bu ilin yanvarında isə 1212 nəfər cəlb edilmişdir.

Nazirlik tərəfindən keçirilən təlimlərə 29781 fermer ilə yanaşı, 8480 icra və bələdiyyə nümayəndəsi, Nazirliyin Aparatının, strukturuna daxil olan və digər qurumların 907 əməkdaşı, 589 baytarlıq və 164 süni mayalanma mütəxəssisi də qatılmışlar.

Yeni subsidiya mexanizminin tətbiqi ilə bağlı keçirilən təlimlər əsasən 3 istiqamət (kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydasının tətbiqi; əkin subsidiyası və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyat; heyvan subsidiyası) üzrə aparılmışdır.

Yaxın vaxtlarda "Arı subsidiyası", "Barama subsidiyası", "Məhsul subsidiyası" və "Toxum-ting subsidiyası" ilə bağlı təlimlərə başlanılacaq. Hazırda bununla bağlı hazırlıq işləri aparılır.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Yanvarın 31-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar quruma daxil olmuş müraciətlərə baxılıb.

Qanunla müəyyən olunmuş qaydada və müddətdə iclasa çıxarılan müraciətlər maraqlı subyektlərin də iştirakı ilə geniş müzakirə edilərək müvafiq qərarlar qəbul olunub. Komissiya Milli Məclisə seçkilərdə seçkiqabağı təşviqatın aparılmasına dair qanunvericiliyin tələblərinə əməl etməyərək ciddi pozuntulara yol verən bir sıra seçki subyektlərinə xəbərdarlıq edib.

Beynəlxalq müşahidə missiyaları və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi iclasda Milli Məclisə seçkilərə hazırlıq istiqamətində müxtəlif məsələlərə dair statistik göstəricilər diqqətə çatdırılıb, həmçinin cari məsələlərə baxılıb.

QƏRAR № 18/109

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 30 yanvar 2020-ci il tarixli 46 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi (səlahiyyətli nümayəndə) Abdullayeva Sevinc Qurban qızı 30 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Qafarov Kəmaləddin Nəsrəddin oğlunun seçkiqabağı təşviqat prosesinə qeyri-qanuni müdaxilə edilməsinə dair həmin seçki dairəsi üzrə qeydə alınmış digər namizəd Həsənov Ülvi Fəxrəddin oğlu və onun səlahiyyətli nümayəndəsi Hüseynov Mehman Rafiq oğlunun hərəkətlərini mübahisələndirmiş, müvafiq tədbir görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Səlahiyyətli nümayəndə Q.S.Abdullayeva müraciətində qeyd etmişdir ki, 9 saylı Binəqədi ikinci seçki dairəsində deputatlığa qeydə alınmış namizəd Ü.F.Həsənov və onun səlahiyyətli nümayəndəsi M.R.Hüseynov digər qeydə alınmış namizəd K.N.Qafarovun seçkiqabağı təşviqatının ilk günündən ona qarşı qanundan kənar təbliğat kampaniyasına başlamış, öz pozucu hərəkətləri ilə namizədə qarşı kampaniya aparmış və müxtəlif sosial şəbəkələrdə həqiqətə uyğun olmayan böhtan, şər xarakterli məlumatlar yaymış, seçicilərlə keçirilən qapalı və məhəlli görüşlərdə öyrədilmiş şəxslərlə birlikdə görüşün normal kecirilməsinə maneə törətmişlər. O, həmçinin bildirmişdir ki, Ü.F.Həsənov və onun səlahiyyətli nümayəndəsi M.R.Hüseynov K.N.Qafarovun seçkiqabağı təşviqat prosesinə ciddi maneə törədir və namizədin Seçki Məcəlləsi ilə müəyyən olunmuş hüquqlarının pozulmasına yönələn hərəkətlər edirlər.

Araşdırma zamanı ərizəçi ilə əlaqə saxlanılmış, onun araşdırmada iştirakı təmin olunmuşdur.

Araşdırma ilə müəyyən edilmişdir ki, Seçki Məcəlləsinin tələblərinə zidd olaraq deputatlığa qeydə alınmış namizəd Ü.F.Həsənov və onun səlahiyyətli nümayəndəsi M.R.Hüseynov sosial şəbəkələr vasitəsi ilə paylaşılan video görüntülərdə qəsdən digər namizəd K.N.Qafarovun əleyhinə pozuculuq fəaliyyəti göstərir, müxtəlif şəxsləri bu fəaliyyətə qoşaraq onun nüfuzdan salınmasına, həmcinin seçkiqabağı təşviqat hüququnun həyata keçirilməsinə ciddi maneçilik törətməyə çalışırlar. Video görüntülərdən görünür ki, həmin şəxslər qanunla onlara verilmiş seçkiqabağı təşviqat hüquqlarından sui-istifadə edərək Seçki Məcəlləsində nəzərdə tutulmayan və qadağan edilən üsüllarla digər namizədin hüquqlarını pozan hərəkətlər edirlər. Belə ki, paylaşılan videolardan da görünür ki, bir neçə halda M.R.Hüseynov bəlli olmayan bir ərazidə vətəndaşlara yaxınlaşır, ironiyalı şəkildə K.N.Qafarov adlı namizədi tanıyırsınızmı sualını verir və həmin şəxslər də eyni qaydada "yox, tanımırıq" cavabını verirlər, sonra M.R.Hüseynov ikrahla gülür və namizədin nüfuzuna xələl gətirən hərəkətlər edir. Digər bir video görüntüdə M.R.Hüseynov namizəd K.N.Qafarovun kütləvi tədbir yolu ilə seçkiqabağı təşviqatının aparıldığı binanın qarşısında yaşlı bir qadını provokativ suallarla K.N.Qafarovun əleyhinə fikirlər söyləməyə sövq edir, bununla da namizədin seçicilərlə görüşünün pozulmasına şərait yaradan hərəkətlər edir.

Araşdırma prosesində namizəd K.N.Qafarovun kütləvi tədbir yolu ilə seçkiqabağı təşviqatında iştirak etmiş bəzi şəxslərin, o cümlədən vətəndaş Həsənli Muxtar Əli oğlu, Cəmilov Cəlal Fazil oğlu, Muradov Ramil Ramiz oğlunun verdikləri izahatlarla müəyyən edilir ki, Ü.F.Həsənov və M.R.Hüseynov bir qrup qadınları təşviqat aparılan gün binanın kənarında təlimatlandırıb və onlara təşviqatın həyata keçirilməsinə mane olmaq göstərişi vermişlər.

Araşdırma ilə müəyyən olunmuşdur ki, seçki qanunvericiliyinin tələblərini pozan həmin seçki subyektlərinin hərəkətləri Seçki Məcəlləsinin 112-1.11.2-ci və 113.1-ci maddələrinin tətbiqi üçün əsas yaradır. Belə ki, Seçki Məcəlləsinin həmin maddəsində göstərilir ki, namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu bu Məcəllənin tələblərini pozduğu hallarda müvafiq seçki komissiyası seçicilərə məlumat vermək şərti ilə həmin namizədə, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna kütləvi informasiya vasitələri ilə xəbərdarlıq edir.

Qeyd edilənlərə əsasən, şikayətin təmin edilməsi və Seçki Məcəlləsinin tələblərinin pozulmasına görə seçki subyektləri barədə qanunla müəyyən olunmuş qaydada tədbir görülməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 112-1.11.2-ci, 113.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə səlahiyyətli nümayəndə Abdullayeva Sevinc Qurban qızının 30 yanvar 2020-ci il tarixli 46 saylı müraciəti əsaslı olduğundan təmin edilsin.
2. 9 saylı Binəqədi ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Həsənov Ülvi Fəxrəddin oğlu və onun səlahiyyətli nümayəndəsi Hüseynov Mehman Rafiq oğluna xəbərdarlıq edilsin.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*31.01.2020-ci il*

QƏRAR № 18/111

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 yanvar 2020-ci il tarixli 40 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Hikmət Səttar oğlu və digərləri 2020-ci il yanvarın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

H.S.Ağayev və digərləri müraciətlərində iddia etmişlər ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə namizəd kimi seçkilərə qatılmış, qanunvericiliyə əsasən 17 yanvar 2020-ci il tarixindən başlayan təbliğat-təşviqat kampaniyasının başlandığı gündən qeydə alınmış namizəd Məmmədov İqbal Nəriman oğlunun vəkili Baxşıyev Cəlil Yüzbaşı oğlu Lerik Rayon İcra Hakimiyyətinin binasında oturmaqla Seçki Məcəlləsinin 69-cu maddəsinin tələblərini pozmuş, ərazi icra nümayəndələri, bələdiyyələr və seçki məntəqələrinin üzvləri tərəfindən İ.N.Məmmədovun görüşləri təşkil olunmuşdur.

Araşdırma zamanı ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, şikayətçilərdən R.Q.Hüseynov komissiyanın iclasında iştirak etmişdir.

Geniş və hərtərəfli araşdırma ilə müəyyən edilmişdir ki, C.Y.Baxşıyev 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndəsi kimi qeydiyyatdan keçmiş, Seçki Məcəlləsinin 69.2-ci maddəsinin tələbinə uyğun olaraq seçki kampaniyasında iştirak etdiyi müddətdə xidməti vəzifəsini yerinə yetirməkdən azad olunmuşdur (bu hal müvafiq əmrlə təsdiq olunur).

Ərazi icra nümayəndələri, bələdiyyələr və məntəqə seçki komissiyaları üzvlərinin İ.N.Məmmədovun seçkiqabağı təşviqatında seçicilər ilə görüşlərinin təşkil edilməsi iddiaları isə həmin subyektlər və digər şəxslər tərəfindən verilmiş izahatlarda öz təsdiqini tapmamışdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulmasına yol verilməsinə dair qeydə alınmış namizəd H.S.Ağayev və digərlərinin iddiası öz təsdiqini tapmadığından şikayətin təmin edilməsi üçün əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 78 saylı Lerik seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Hikmət Səttar oğlu və digərlərinin 29 yanvar 2020-ci il tarixli 40 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*31.01.2020-ci il*

QƏRAR № 18/110

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 38 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimova Gülzar İsaxan qızı 2020-ci il yanvarın 28-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı onun hüquqlarının pozulmasını iddia etmiş, bu pozuntuların araşdırılmasını və müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi və müvafiq qərar qəbul edilməsi üçün dairə seçki komissiyasının da araşdırmaya cəlb edilməsi ilə araşdırma müddəti Mərkəzi Seçki Komissiyasının 30 yanvar 2020-ci il tarixli 17/107 saylı Qərarı ilə artırılmışdır.

G.İ.İbrahimova iddia etmişdir ki, Kürdəmir rayon yerli icra nümayəndələri tərəfindən ona qarşı seçkiqabağı təşviqatın aparılmasına süni maneə yaradılmış, digər qeydə alınmış namizədin xeyrinə qanuna zidd təşviqat aparılmış, təşviqat materiallarını müvafiq yerlərdə yerləşdirə bilməmiş, Atakişili kənd inzibati dairəsi üzrə nümayəndəsi Ə.Həmidov və müavini M.Bağırov onun seçicilərlə görüşməsinə mane olmuşdur.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, komissiyanın iclasına dəvət edilmiş, ancaq iclasa gəlməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından daxil olmuş məktubda göstərilir ki, Kürdəmir Rayon İcra Hakimiyyəti tərəfindən həmin seçki dairəsi üzrə seçkiqabağı təşviqatın aparılması üçün qapalı və açıq yerlər ayrılmış və onların istifadəsində bütün namizədlərə bərabər şərait yaradılmışdır. Seçkiqabağı təşviqatın aparılmasında qanuna zidd halların baş verməsinə dair G.İ.İbrahimova dairə seçki komissiyasına müraciət etməmişdir.

Həmçinin seçki dairəsi üzrə qeydə alınmış digər namzədlər V.P.Alıyevin, N.İ.Qəribovun, T.N.Feyzullayevanın, Ə.H.Ağazadənin və onun səlahiyyətli nümayəndəsi N.U.Ağayevin, vəkil edilmiş şəxs K.İ.Hacıyevin, qeydə alınmış namizəd C.G.Məmmədovun səlahiyyətli nümayəndəsi V.Q.Şirinovun, qeydə alınmış namizəd V.M.Abışovun səlahiyyətli nümayəndəsi S.Ə.Salahovun təqdim etdikləri izahatlardan görünür ki, 2020-ci il yanvarın 17-dən başlayaraq seçkiqabağı təşviqat Seçki Məcəlləsinin tələblərinə uyğun aparılmış, qeydə alınmış namizədlərə bərabər şərait yaradılmış, hər hansı bir formada seçkiqabağı təşviqatın aparılmasına maneçilik törədilməsi halı qeydə alınmamışdır.

Kürdəmir Rayon İcra Hakimiyyətinin Atakişili kənd inzibati dairəsi üzrə nümayəndəsi Ə.Həmidov və müavini M.Bağırovun izahatlarından görünür ki, onlar tərəfindən G.İ.İbrahimovanın seçkiqabağı təşviqatının aparılmasına heç bir müdaxilə olmamışdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, seçkiqabağı təşviqatın aparılması qaydalarının pozulmasına yol verilməsinə dair qeydə alınmış namizəd G.İ.İbrahimovanın iddiası öz təsdiqini tapmadığından şikayətin təmin edilməsi üçün əsaslar yaranmamışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 57 saylı Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd İbrahimova Gülzar İsaxan qızının 28 yanvar 2020-ci il tarixli 38 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*31.01.2020-ci il*

QƏRAR № 18/112

## 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 yanvar 2020-ci il tarixli 39 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxşəliyev Ərəstun Əli oğlu, 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlu və digərləri 28 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçkiqabağı təşviqatın aparılması zamanı qanun pozuntularının baş verdiyini iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Ərizəçilər müraciətlərində iddia etmişlər ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 93 saylı Bərdə şəhər və 94 saylı Bərdə kənd seçki dairələri üzrə seçkiqabağı təşviqat Bərdə rayonunun yerli icra və bələdiyyə qurumlarının, rayon təhsil və səhiyyə şöbələri rəhbərliyinin müdaxiləsi ilə həyata keçirilməklə digər qeydə alınmış namizədlər F.V.Yıldırımın və Z.M Orucun xeyrinə aparılır.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Müraciətdə göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün sübutların əldə edilməsi və müraciətə əlavə olunmuş video materialların Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən mətbuat qrupu təmsilçilərinin iştirakı ilə birgə araşdırılması məqsədi ilə araşdırma müddəti Mərkəzi Seçki Komissiyasının 17/108 saylı qərarı ilə artırılmışdır.

Araşdırma ilə əlaqədar müvafiq sənəd və izahatlar adıçəkilən dairə seçki komissiyalarından tələb edilərək nəzərdən keçirilmiş və müəyyən edilmişdir ki, həmin seçki dairələrində qeyd edilən vəzifəli şəxslərin müdaxiləsi ilə seçkiqabağı təşviqatın aparılması halları baş verməmişdir. Həmçinin, mübahisələndirilən hallar üzrə Bərdə Rayon İcra Hakimiyyəti başçısının Mollalı kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi T.K.Qənbərovdan, Məmmədli kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi V.K.Nuriyevdən, Soğanverdilər kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi R.R.Ələsgərovdan, Mustafaağalı kənd ərazi inzibati ərazi vahidi üzrə nümayəndəsi Q.H.Zeynalovdan, Mehdikəlilli kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi B.Ə.Abdullayevdən, Mircəfərli kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi M.Ə.Əzizovdan, Güloğlular kənd inzibati ərazi vahidi üzrə nümayəndəsi Ə.M.Rüstəmovdan, Bəciravan kənd ərazi inzibati vahidi üzrə nümayəndəsi F.H.Süleymanovdan, Bərdə Rayon Təhsil Şöbəsinin müdiri R.Y.Şərifovdan, Mərkəzi Rayon Xəstəxanasının direktoru N.F.Mehdizadədən, Mustafaağalı bələdiyyəsinin sədri E.Y.Vəliyevdən, Soğanverdilər bələdiyyəsinin sədri H.M.Məmmədovdan, Məmmədli bələdiyyəsinin sədri P.Y.Tağıyevdən, Mollalı bələdiyyəsinin sədri S.M.Çıraqlıdan, Qaradağlı bələdiyyəsinin sədri M.B.İsgəndərovdan, Mircəfərli bələdiyyəsinin sədri N.V.Alıyevdən, Tağlılar bələdiyyəsinin sədri A.M.Ağayevadan, Bəciravan bələdiyyəsinin sədr müavini R.B.Bəylərovdan, Mustafaağalı kənd tam orta məktəbinin direktoru A.C.Məmmədovadan, Məmmədli kənd tam orta məktəbinin direktoru E.Y.Cəfərlidən, Mollalı kənd tam orta məktəbinin direktoru H.Ə.Əzimovdan, Soğanverdilər kənd tam orta məktəbinin direktoru V.M.Süleymanovdan, Mustafaağalı kənd tam orta məktəbinin müəllimləri K.M.Hüseynovadan, N.M.Hüseynovdan, T.N.Məmmədovadan, Məmmədli kənd tam orta məktəbinin müəllimləri K.Q.Əliyevdən, R.Ə.Əliyevdən, F.M.Gülməmmədovdan, Mollalı kənd tam orta məktəbinin müəllimləri N.Q.Ağayevadan, K.Ə.Zeynalovadan, E.H.Əzimovdan, Bəcirəvan kənd sakinləri M.M.Abdullayevdən, Ə.R.Səfərovdan, Ü.A.Hüseynovdan, qeydə alınmış namizədlər Q.V.Məmmədovdan, A.V.Vəliyevdən, Q.Q.Quliyevdən, X.H.Həsənovadan, G.X.Əsədovdan, X.Y.Əhmədovadan, Z.M.Fətəliyevdən alınmış izahatlarla iddia edilən pozuntular təsdiqini tapmamışdır.

93 saylı Bərdə şəhər və 94 saylı Bərdə kənd seçki dairələrindən daxil olmuş arayışlara əsasən müəyyən edilir ki, Bərdə Rayon İcra Hakimiyyəti tərəfindən həmin seçki dairələri üzrə seçkiqabağı təşviqatın aparılması üçün qapalı və açıq yerlər ayrılmış, istifadə üçün namizədlərə bərabər şərait yaradılmışdır. Ərizəçilər tərəfindən seçkiqabağı təşviqatın aparılması zamanı hər hansı bir formada onlara maneəçilik törədilməsi və müdaxilə edilməsi barədə dairə seçki komissiyalarına müraciət edilməmişdir.

Müraciətə əlavə olunmuş video materialın Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən mətbuat qrupu təmsilçilərinin iştirakı ilə araşdırılması nəticəsində müəyyən edilmişdir ki, 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd F.V.Yıldırım tərəfindən Seçki Məcəlləsinin 88.4.4-cü maddəsinin tələbi pozulmuşdur. Belə ki, 23 yanvar 2020-ci ildə Aran TV-də yayımlanmış video süjetdə vətəndaşların müraciətlərinə əsasən Bərdə rayonu Cumalı kənd qəbiristanlığına gedən torpaq yolun hamarlanmasında göstərdiyi köməyə görə kənd sakinləri ona minnətdarlığını bildirirlər. Bununla da seçkiqabağı təşviqatın aparılmasında əvəzsiz xidmətlər göstərməklə seçicilərin ələ alınması kimi pozuntu halının olması müəyyən edilmişdir.

Seçki Məcəlləsinin 113.1-ci maddəsinin tələbinə görə namizəd, qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu bu Məcəllənin tələblərini pozduğu hallarda müvafiq seçki komissiyası seçicilərə məlumat vermək şərti ilə həmin namizədə, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna, referendum üzrə təşviqat qrupuna kütləvi informasiya vasitələri ilə xəbərdarlıq edir.

Beləliklə, 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd F.V.Yıldırım haqqında yuxarıda qeyd edilən hal istisna olmaqla digər hallar öz təsdiqini tapmamışdır. Həmçinin 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Z.M.Orucun seçkiqabağı təşviqatının aparılması ilə əlaqədar iddia edilən pozuntu halları müəyyən edilməmişdir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 88.4.4-cü, 112-ci, 112-1-ci, 113.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Baxşəliyev Ərəstun Əli oğlu, 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlu və digərlərinin 28 yanvar 2020-ci tarixli 39 saylı müraciəti qismən təmin edilərək 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə qeydə alınmış namizəd Yıldırım Fatma Vidadi qızına xəbərdarlıq edilsin, müraciət qalan hissədə əsassız olduğundan təmin edilməsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*31.01.2020-ci il*

# Moskvada Leyla Əliyevanın təşəbbüsü ilə "Rusiyanın azərbaycanlı gəncləri" mövzusunda konfrans keçirilib



Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə "Rusiyanın azərbaycanlı gəncləri" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda RAGB-nin fəalları, Azərbaycan diasporunun, Rusiyanın dövlət orqanlarının, gənclər təşkilatlarının nümayəndələri, blogerlər iştirak ediblər. Tədbirdə elm və təhsil, idman, mədəniyyət və digər sahələrdə birgə layihələrin hazırlanması və həyata keçirilməsi məsələləri müzakirə olunub.

RAGB layihələrinin əlaqələndiricisi Ramin Rəcəbov konfransı açaraq Heydər Əliyev Fondunun vitse-prezidenti, RAGB-nin sədri Leyla Əliyevanın adından iştirakçıları salamlayıb, onlara uğurlu iş arzulayıb. O qeyd edib ki, RAGB konfransının Azərbaycanda fevralın 2-də qeyd olunan Gənclər Günü ərəfəsində keçirilməsi əlamətdar haldır. Bu yaxınlarda 10 illik yubileyini qeyd etmiş RAGB-nin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə gördüyü işlərdən danışan R.Rəcəbov təhsil, mədəniyyət, ekologiya, səhiyyə və digər sahələrdə gerçəkləşdirilmiş layihələrdən söz açıb. "Fərəhləndirici haldır ki, azərbaycanlı gənclər Rusiya cəmiyyətinə fəal inteqrasiya etməklə yanaşı, öz köklərini, adət-ənənələrini də yaddan çıxarmırlar", - deyə o bildirib.

RAGB-nin məsul katibi Ceyhun Hüseynov çıxışında Azərbaycanda rus dili və ədəbiyyatına dövlət qayğısından danışıb. O vurğulayıb ki, gənclər Rusiyada və Azərbaycanda baş verən prosesləri diqqətlə izləyir, bir-birinin sevincinə şərik olurlar. Xalqlarımız arasında mehriban dostluq münasibətlərinin qurulması dövlət başçıları İlham Əliyev və Vladimir Putinin müdrik siyasətləri sayəsində mümkün olub.

"Yedinaya Rossiya" partiyasının "Molodaya qvardiya" təşkilatının Beynəlxalq istiqamət rəhbərinin müavini Valeriya Sidorenko RAGB ilə ən müxtəlif istiqamətlərdə müştərək layihələrin həyata keçirildiyini bildirərək deyib ki, siyasi-sosial yönümlü parlament debatları mövzusunda birgə tədbir uğurla keçirilib. "Düşünürəm ki, bu cür tədbirlərin ardıcıl keçirilməsi məqsədəuyğundur. Gənclər özləri də birgə işləməkdə maraqlıdırlar. Olduqca vacib məsələlərin müzakirə edildiyi bugünkü konfransda həm Moskvada, həm də regionlarda təhsil alan azərbaycanlı gənclərin iştirakı bizi çox sevindirir. "Molodaya qvardiya" və RAGB kimi təşkilatlar gəncləri istiqamətləndirir, onlara öz potensialından düzgün istifadə etməkdə yardımçı olur. Rusiya və Azərbaycan gəncliyinə yalnız irəli getməyi, çətinliklərdən qorxmamağı arzu edirəm", - deyə V.Sidorenko vurğulayıb.

"Molodyoj Daqestana" nəşrinin müxbiri Mariya Malova hələ tələbəlik illərindən RAGB ilə sıx əməkdaşlıq etdiyini bildirib: "O zamanlar da RAGB üzvləri hər zaman fəallıq göstərirdilər. İndi mən və yaşıdlarım artıq tələbə olmasaq da, tələbələri dəstəkləmək, onların problemləri və planları ilə maraqlanmaq üçün bu gün buraya toplaşmışıq. Nə yaxşı ki, azərbaycanlı dostlarımla əlaqələrimizi itirmirik".

Konfransda Azərbaycan diasporunun nümayəndəsi, iqtisad elmləri namizədi, dosent Aybəniz Rüstəmova, "Könüllü tibb işçiləri" Ümumrusiya İctimai Hərəkatının əlaqələndiricisi Olqa Nikitina, Dövlət Duması deputatının köməkçisi Yuliya Şmantsr, RAGB fəalı İlahə Ələkbərova və başqaları iki ölkə gənclərinin əməkdaşlığından, aktual sosial mövzularda birgə layihələrin hazırlanmasının əhəmiyyətindən danışıblar.

# Tələbələr üçün faydalı ekskursiyalar





Azərbaycan İlahiyyat İnstitutunun (AİI) bir qrup tələbəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunu ziyarət edib.

Tələbələr institutda Yaxın və Orta Şərq, Şimali Afrika xalqlarının elm və mədəniyyətinə aid türk, ərəb, fars dillərində qiymətli əsərlərlə, eyni zamanda, XIX-XX əsrlərdə yaşamış görkəmli elm və mədəniyyət xadimlərinin şəxsi sənədləri, əvvəlki dövrlərin qəzet və jurnalları, müxtəlif mikrofilm və fotosurətlər ilə tanış olublar.

İnstitutda qorunan qədim əlyazmalarla tanışlıq zamanı tələbələrə 1982-ci ildən fəaliyyət göstərən Ekspozisiya zalında Nur Əlişah İsfahani, Nəxşəvi Ziyaəddin, İbrahim Həqqi, Əbu Cəfər ibn Məhəmməd Təbəri, Məhəmməd Füzuli, Seyid Məhəmməd Ürfi Şirazi, Bəvazici, Əhməd Nədim, Əbdürrəhman Cami, Ömər Xəyyam Nişapuri, Əmir Xosrov Dəhləvi, Hafiz Şirazi, Saib Təbrizi, Əssar Təbrizi, Nəsrəddin Tusi, Məhsəti Gəncəvi, Əlişir Nəvai, Mirxond Məhəmməd ibn Xavəndşah, Seyid Əzim Şirvani, Abbasqulu ağa Bakıxanov, eləcə də digər görkəmli elm və mədəniyyət xadimlərinə aid əsərlərin əlyazma nüsxələri haqqında geniş məlumat verilib.

Tələbələr institutda mühafizə olunan əlyazmaların saxlanma şəraiti və bərpası prosesi ilə maraqlanıb, bərpa laboratoriyasında əməkdaşların iş təcrübəsi ilə tanış olublar.

Tələbələr, eyni zamanda, XVI əsrin əvvəllərində Təbrizdə, əsrin ikinci yarısında isə Qəzvində saray kitablarının bədii emalatxanalarında çalışan dövrünün ən görkəmli xəttat və rəssamları olan Sultan Məhəmməd, Mir Müsəvvir, Mirzə Əli Təbrizi, Mir Seyid Əli, Müzəffər Əli, Məhəmmədi, Sadiq bəy Əfşar, Siyavuş bəy, Mir Zeynalabdin və başqalarının fəaliyyət göstərməsi barədə ərtaflı məlumat alıblar.

Həmçinin AİI-nin tələbələri Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasını (MEK) ziyarət ediblər.

Kitabxananın qeydiyyat bölməsindən ekskursiyaya başlayan tələbələr daha sonra ənənəvi və elektron kataloqla tanış olaraq burada kitab sifariş etməyi, sənədlərin elektron kataloqa daxil edilməsi prosesini izləyiblər. Ziyarətçilər sərgi salonunda müxtəlif mövzularda nümayiş edilən kitablarla tanış olublar.

Daha sonra tələbələrə MEK-in tarixi, fəaliyyəti və məqsədi barədə geniş məlumat verilib. Qeyd olunub ki, Azərbaycanın qədim tarixinin və zəngin mədəniyyətinin, Azərbaycan Respublikasının müstəqillik illərində qazanılmış siyasi, iqtisadi, sosial və mədəni nailiyyətlərinin təbliğ edilməsi, Azərbaycan dilinin informasiya resurslarında istifadə imkanlarının genişləndirilməsi, müasir elmi araşdırmaların aparılması üçün informasiya təminatının yaxşılaşdırılması, milli-tarixi irsimizi təşkil edən və yeni yaranan bütün növ mövcud informasiya vahidlərinin toplanıb saxlanılması, dünya elmi, tarixi və mədəniyyətinin istifadəçilərinə təqdim olunması MEK-in əsas vəzifələrindəndir.

Ziyarət zamanı tələbələr, həmçinin MEK-in Diplomatik Fondunu, Nadir Kitab Fondunu, Dövri Mətbuat Fondunu, Oxu zallarını gəziblər.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu tələbələrin dünyagörüşlərinin, intellektual səviyyələrinin zənginləşdirilməsi, elmi tədqiqat işlərinin aparılmasına maraqlarının artırılması, kitabxanalardan fəal istifadələrini təmin etmək məqsədilə müxtəlif tədbirlər həyata keçirir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Səmadan xəbərsiz böyüyən Azərbaycan şagirdi

## Kosmosda 3 peyki olan ölkəmizin məktəblərində niyə astronomiya tədris edilmir?

"Xacə Nəsir Marağadakı astronomiya rəsədxanasının tikintisinə başlamaq üçün lazım gələn məsarifi Hülakuyə deyəndə, o, məbləğin böyüklüyünü şübhə ilə soruşdu: "Yəni ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?" Nəsir cavabında söylədi: "İzn verin, bir nəfər həmin dağa qalxıb, ordan boş bir tası yerə atsın, ancaq bunu elə eləsin ki, heç kəs bilməsin". Belə də edirlər. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülaku xanın ordusu vahiməyə düşür. Nəsirəddinsə bu zaman xanla birlikdə sakitcə oturub, qoşundakı vahiməni seyr edirdilər. Nəsirəddin xana deyir: "Hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, Yer üzündə həmişə belə rahatlıq hökm sürər". Beləcə, əslən azərbaycanlı olan alim, filosof, astronom Nəsirəddin Tusinin təşəbbüsü və yaxından iştirakı ilə 1259-cu ildə Marağa şəhərinin qərbindəki təpənin döşündə rəsədxananın tikintisi başlanır. Marağa rəsədxanasının və onun banisi Nəsirəddin Tusinin elmi nailiyyətləri dünya astronomiyasının inkişafında əhəmiyyətli rol oynayır...

### Kosmosda Azərbaycan izi

Və bu hadisədən 7 əsr sonra insan oğlu ilk dəfə bilinməyən aləmə ayaq açır... Azərbaycanın da daxil olduğu SSRİ kosmosu fəth edir... Bu tarixin gerçəkləşməsində isə həmyerlilərimizin də payı olur. Bəlkə də az adam bilir ki, Yerin cazibəsindən çıxa bilmiş qəhrəman insanlardan dördünün həyatı Azərbaycanla bağlı olub. Milliyyətcə lak olsa da, Musa Manarova ilk azərbaycanlı və ilk müsəlman kosmonavt deyə bilərik. Bakıda doğulan Musa Manarov kosmosda ən çox vaxt keçirmiş səkkizinci insandır. Həmyerlimiz 1987-ci ilin dekabrında kosmosa ilk uçuşu zamanı düz bir il fəzada qalıb. 365 gün, 22 saat, 38 dəqiqə sonra Yerə qayıdaraq o dövr üçün ən uzun müddət kosmosda qalan iki planet sakinindən biri olub. Bu şücaətinə görə ona Sovet İttifaqı Qəhrəmanı adı verilib. O, kosmonavtika tarixində ikinci ən uzunmüddətli kosmik uçuşu (175 sutka 2 saat) həyata keçirib. Həmçinin dünyada ilk dəfə açıq kosmosdan Yerlə radio əlaqəsinə girib.

Amma bakılı kosmonavt kimi ilk dəfə məhz Sovet İttifaqı Qəhrəmanı Vitali Mixayloviç Jolobov tanınıb. O, Ukraynada doğulsa da, Bakıda böyüyüb. 1954-cü ildə 164 saylı orta məktəbi bitirərək Azərbaycan Neft və Kimya İnstitutuna daxil olub. Jolobov 1976-cı ilin avqustunda kosmosa uçub və 49 sutkadan sonra yerə dönüb.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, təyyarəçi-kosmonavt Valeri Viktoroviç Ryumini Azərbaycanla bağlayan isə əsgəri xidmətidir. 1959-1961-ci illərdə V.Ryumin Gəncə və Lənkəran şəhərlərində tank qoşunları tərkibində tank komandiri kimi xidmət keçib. O, 4 dəfə kosmosa uçub, üst-üstə 371 sutkadan çox Yer orbitindən kənarda olub.

2006-cı il sentyabrın 18-də kosmosa uçan ilk müsəlman qadın və ilk kosmonavt turist olan Anuşe Ənsari də Güney Azərbaycandandır.

SSRİ miqyasında kosmik gəmilərin qurulmasında və tədqiqatların aparılmasında bir neçə azərbaycanlı alimin də rolu danılmazdır. İlk insanın kosmosa səyahətinin hazırlanmasında general-leytenant Kərim Kərimovun böyük xidməti olub. 1961-ci ildə kosmosa ilk insan uçuşunun təşkilində fəal iştirakına görə Kərim Kərimova Lenin mükafatı verilib. O, SSRİ Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri olaraq 25 il bütün kosmik uçuşlara cavabdehlik daşıyıb və nəzarət edib. 1987-ci ildə "Mir" çoxmodullu orbitlərarası stansiyanın yaradılması və həmin stansiyaya uçuşların təşkilinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

Keçmiş SSRİ və Azərbaycanda kosmik elmlərin inkişafında 1991-ci il noyabrın 20-də Qarabağ səmasında terror qurbanı olmuş, müstəqil Azərbaycanın ilk dövlət katibi Tofiq İsmayılovun da böyük xidmətləri var. O, SSRİ-də yeganə olan Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutunun baş direktoru, 1982-ci ildən ömrünün sonunadək isə Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyinin baş konstruktoru və baş direktoru vəzifələrində işləyib. SSRİ Baş Kosmos İdarəsi Elmi Şurasının və Beynəlxalq Mühəndislik Akademiyasının akademiki olub. Onun hazırladığı kosmik rentgen teleskopları sovet kosmik gəmilərində uğurla tətbiq edilib.

Bu gün də Azərbaycanda kosmik elmin və sənayenin inkişafı davam etdirilir. 2013-cü ildə Azərbaycan kosmosa ilk süni peykini buraxdı. Bununla da "kosmik klub"a üzv oldu. Artıq üçüncü milli peykimizi orbitə çıxarmışıq.

Bəs niyə kosmik peykləri orbitə çıxarılan, "Azərkosmos" kimi qurumu, Astrofizika rəsədxanası olan, Ayda, Marsda krater adları daşıyan alimlər yetişdirən ölkədə astronomiya son illərdə məktəb proqramından ixtisar edilib, ayrıca fənn kimi tədris olunmur? Bu qərar müvafiq sahədə kadrların yetişməsində problemlər yaradırmı? Yaşadığımız kosmos əsrində astronomiyanın yenidən ayrıca fənn kimi tədris olunması zəruri deyilmi? Mövzunu sahənin mütəxəssislərinin ixtiyarına verdik.



### Astronomiyanı digər fənlər tam əvəz edə bilirmi?

**Təhsil eksperti Nadir İsrafilov** deyir ki, astronomiya səma cisimlərini - qalaktikalar, ulduzlar, planetlər, kometlər və s. öyrənən bir sahə kimi uzun illər orta ümumtəhsil məktəblərində ayrıca fənn kimi tədris olunur və onun öyrənilməsinə konkret saat nəzərdə tutulurdu. Lakin Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədində "astronomiya" ayrıca fənn kimi tədris fənlərinin sırasından çıxarıldı: "Bir sıra mütəxəssislər hesab edir ki, astronomiyanı orta məktəb proqramından çıxarmaq düzgün deyil. Bu fənnin ləğvinin həmin sahəyə marağın azalmasında çox böyük təsiri oldu. Hətta bu barədə Təhsil Nazirliyinə müraciət etməyə və ortaya vacib faktları qoymağa hazırlıq görənlər də var. Sözügedən fənn Avropa ölkələrində orta təhsil səviyyəsində tədris olunur. Fənnin tədrisi əvvəl Rusiyada da ləğv edilsə də, sonradan yenidən bərpa olunub".

Ekspertin fikrincə, astronomiya dünya sivilizasiyasının aparıcı sahələrindən biri, insanın dünyagörüşünün formalaşmasında əvəzsiz rol oynayan faktor olsa da, bu fənnin yenidən tədris planına salınması bu gün üçün o qədər də real görünmür. Hər şeydən əvvəl ona görə ki, artıq tədris planı, təhsil proqramları və aidiyyəti dərsliklər müvafiq kurikulumlara uyğunlaşdırılıb: "Astronomiya fənn kimi ləğv olunsa da, fizika və coğrafiya dərsliklərinin məzmununda müəyyən dərəcədə əksini tapıb. Astronomik biliklər məkan-məzmun xətti üzrə VI-XI siniflərdə coğrafiya dərsliklərində müxtəlif məqamlarda tədris edilir. Eyni zamanda buna fizikada rast gəlinir. Bu fənnə marağın formalaşmasında X-XI siniflərdəki təmayülləşmə prosesi də əhəmiyyətli rol oynayır. Məsələn, şagird təbiətyönümlü ixtisaslara hazırlaşırsa, o, coğrafiya və fizikadan tədris olunan astronomik bilgilərə də malik olur. İstənilən halda qaldırılan məsələnin zamana ehtiyacı var. İlkin olaraq çıxış yolu kimi aidiyyəti fənlərdə astronomik bilgilərə dair materialların həcmini bir qədər artırmaq olar".

### Şamaxı rəsədxanasında indidən kadr çatışmazlığı var

**N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru, AMEA-ın müxbir üzvü Namiq Cəlilov** söyləyir ki, dünya praktikasında astronomiya fənninin orta məktəblərdən çıxarılması müsbət nəticələrə gətirməmiş, sonda yenidən tədris fənləri sırasına daxil edilmişdir. Azərbaycanda da bu fənnin yenidən tədris edilməsinə ciddi ehtiyac duyulmaqdadır: "Orta məktəblərdə tədris edilən təbiət elmlərində rast gəldiyimiz qanunların təbii təcrübə laboratoriyası kainatdır. Bu laboratoriyanın necə işlədiyini başa düşmək astronomiyanın hədəflərindən biridir. Müasir astronomiya o qədər çoxşaxəli elmdir ki, yalnız kiçik dar çərçivədə ali məktəblərdə tədris olunması yetərli deyil. Vaxtilə vəziyyət başqa cür idi, şagirdlərə məktəblərdə astronomiya tədris olunurdu. Lakin son illər astronomiya fənninin tədrisi dayandırılıb. Kosmosda 3 peyki və özünün müasir rəsədxanası olan bir ölkənin orta məktəblərində astronomiyanın tədris olunmaması qəbuledilməzdir. Nəzərə almaq lazımdır ki, XXI əsrdə astronomiya sürətlə inkişaf etməkdədir. Son illərdə Nobel mükafatlarının məhz astrofizika sahəsindəki kəşflərə verilməsi bu elmə dünya miqyasında verilən qiymətdir. Kosmik tədqiqatlarda, yerüstü və ya atmosferdən kənar astronomik müşahidələrdə texniki cəhətdən inkişaf etmiş bütün ölkələr iştirak edirlər. Kainatı araşdırmaq üçün yeni imkanlar açan nəhəng yüksək texnologiyalı yerüstü əsaslı teleskopların yaradılması üçün dörd milyard dollardan çox dəyəri olan beynəlxalq layihələr həyata keçirilir. Astronomiya və onun istiqamətlərindən biri olan astrofizika yaxın gələcəyin elmidir. Odur ki, bu gün yaşadığımız kosmos əsrində astronomiyanı geniş şəkildə öyrənmək üçün onun fənn kimi tədrisinə ciddi ehtiyacımız var".

N.Cəlilov qeyd edir ki, bu qərar müvafiq sahədə kadr probleminin yaranmasına da səbəb olur. Belə ki, rəsədxanada indidən kadr çatışmazlığı var. Yaşlı nəsil qocalıb, gənc nəsil isə bu sahəyə gəlmir. Bunun qarşısını almaq üçün müəyyən addımlar atılsa da, bu, köklü şəkildə olmalıdır: "Biz Bakı Dövlət Universitetinin Fizika fakültəsinin Astrofizika kafedrasının yetirmələriyik. Amma indi o kafedraya da gələn tələbələrin sayı azdı. Çünki astronomiyaya maraq orta məktəbdən başlamalıdır. Necə ki, bizlərdə də maraq elə orta məktəbdə o dərsdən yaranmışdı. Rəsədxanaya böyüklü-kiçikli minlərlə insan gəlir, kosmosun quruluşu, planetlər barədə çoxlu suallar verirlər. Bu marağı nəzərə alıb yuxarı siniflərdə həftədə bir dəfə Astronomiya fənni keçirilməlidir. Bundan başqa, Azərbaycan artıq orbitdə özünün peykləri olan azsaylı ölkələrdən biridir. Ölkə başçısının son illərdə Azərbaycanda "Azərkosmos" MMC-nin yaradılması və Şamaxı Astrofizika Rəsədxanasının müasir rəsədxanaya çevrilməsi ilə bağlı verdiyi sərəncamlar bu sahəyə böyük diqqətin göstəricisidir. Bunun nəticəsi olaraq ölkəmiz kosmik sənaye ölkələri sırasına daxil olmuşdur. Bu sahələrin gələcəkdə milli gənc kadrlarla təmin edilməsi orta məktəblərdə astronomiyanın tədrisindən başlamalıdır".

Rəsədxana direktoru onu da əlavə edib ki, Şamaxı rayon icra başçısı Tahir Məmmədov, Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ilə birlikdə məktəblilər arasında astronomiyanın təbliği ilə bağlı məsələni müzakirə ediblər. Qərara alınıb ki, Şamaxıda dəqiq elmlərin, eləcə də astrofizikanın tədris olunduğu bir mərkəz yaradılsın. Yuxarı sinif şagirdləri arasından astronomiyaya marağı olanlar seçilərək onlara təcrübəli kadrlar tərəfindən dərs keçilsin. Artıq layihə hazırdı, sadəcə onun icrası qalır. Bunun üçün də təhsil nazirinin icazəsi olmalıdır...

### Dünyanın quruluşunu bilməyən tələbələr

**Bakı Dövlət Universitetinin Astrofizika kafedrasının müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosent Kəmalə Alışeva**nın sözlərinə görə, astronomiyanın məktəblərdə tədris olunmamasının fəsadları indidən hiss olunmağa başlayıbsa, bir müddət sonra vəziyyət daha da pis olacaq.

Astronomiyanın fənlər siyahısından çıxarılmasını düzgün hesab etməyən kafedra müdiri deyir ki, bu qərar tələbələrin dünyagörüşünün formalaşmasına mənfi təsir edir: "Əvvəl universitetə girən tələbənin astronomiyaya dair müəyyən bilgiləri vardı. Biz də məktəbdən qoyulan o bazaya əsaslanıb fənni tədris edirdik. İndi isə tələbələrdə heç bir baza yoxdu, istər-istəməz məcbur olub tam sıfırdan başlayırıq. Təəssüf ki, əksər tələbələrin adi dünyagörüşü də yoxdur. İkinci kurs tələbəsidi, dünyanın quruluşunu, planetlərin adlarını bilmir. Bir çoxları Günəşə planet deyir. Bundan başqa, əvvəl tələbə bu fakültəyə birbaşa o istəklə gəlirdi ki, mən astronom olacam, planetləri tədqiq edəcəm. İndi isə o istəklə gələn gənclər yoxdu. Çünki astronomiya haqqında təsəvvür yoxdur. Bir şey haqda məlumat yoxdursa, maraq hardan olsun?! Biz sonradan o həvəsi oyadırıq, məsləhət görürük. Düzdür, indi internet, sosial şəbəkələr geniş yayılıb, hər məlumatı ordan əldə etmək mümkündür. Amma indiki şagirdlərin maraq dairəsi o qədər dardı ki, əlavə məlumat oxumaq istəmirlər. Adi Günəş tutulmasının necə baş verdiyindən çoxunun xəbəri yoxdur. Heç kim məlumat tapıb oxumur ki, bu proses nədir. Amma məktəbdə həftədə 1 dəfə astronomiya keçilsəydi, müəllim gəlib dərsdə onu izah edərdi. Ona görə də astronomiyanın məktəblərdə tədrisi mütləq bərpa olunmalıdır. Bir insanın normal dünyagörüşünün olması üçün ən azından harda yaşadığını bilməli, az da olsa, astronomiyanı öyrənməlidir".

### "İnsanlar digər planetlərə ayaq açdığı halda niyə bizim məktəblilər ulduzla planetin fərqini bilməsin?"

**"Yaşıl elm" portalının rəhbəri, məktəblilər arasında kosmosla bağlı seminarların təşkilatçısı Taryel Abdullayev** də astronomiyanı vacib fənn hesab edir, çünki bütün göy cisimlərinin və ulduzlararası maddələrin təkamülünü, fiziki və kimyəvi quruluşlarını, mövqelərini araşdıran bir elmdir və onlar haqqında izahatlar verir. Bu fənn nəinki kosmosu öyrənməyə kömək edir, fizika, kimya, riyaziyyat, həndəsə, tarix kimi fənləri özündə cəmləşdirir və praktiki olaraq istifadəsinə şərait yaradır. Astronomiyanın inkişafı mədəniyyətin inkişafı ilə birbaşa mütənasibdir. Çünki elmi araşdırmalar kainatdakı sistemlərdən ilhamlanır. Kainat haqqında biliklər olmadığı zaman nəzəri olaraq irəli sürülən fikirlər buna görə formalaşmaq məcburiyyətində qalır. Bu baxımdan astronomiya məktəblilərin həm də intellektuallığına kömək edir, şagirdlərdə maraq, təxəyyül və kəşf hisslərini gücləndirir. Bu isə şəxsin gələcəkdəki bütün karyerası boyu təxəyyülündən istifadə etməyə xidmət edir: "Astronomiya inkişaf etmiş və ya inkişaf etməmiş bütün ölkələrin inkişafında əhəmiyyətli yerə sahibdir, gələcək nəsilləri elm və mühəndislik tədqiqatlarına təşviq edən elm sahəsidir. Astronomiyanın təqdim etdiyi naviqasiya texnikası dənizçilərin və aviatorların Yer kürəsini gəzməsinə imkan yaradıbsa, bu fəndən necə imtina edə bilərik? İnsanlar digər planetlərə ayaq açdığı, koloniya salmağa hazırlaşdığı halda niyə bizim məktəblilər ulduzla planetin fərqini bilməsinlər? Necə ola bilər ki, kosmos əsrində "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları" sənədində astronomiya tədris fənlərinin arasından çıxarılmış olsun?"

### Təhsil Nazirliyi: "Bu, kadr çatışmazlığına səbəb olmur"

Təhsil Nazirliyi müvafiq mövzu ilə bağlı qəzetimizin sorğusuna cavab olaraq qeyd edib ki, Azərbaycan məktəblərində astronomiya fənni məcburi fənn kimi 85 il (1932-2017-ci illər) tədris olunmuşdur. Bu fənn onillik təhsil dövründə (1986-cı ilə qədər) 10-cu sinifdə, onbirillik təhsil dövründə (1986-2017-ci illər) 11-ci siniflərdə həftədə 1 saat olmaqla tədris edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədində ümumi orta və tam orta təhsil səviyyələrinin fənn bloklarında astronomiya fənninin tədrisi nəzərdə tutulmamışdır.

Təhsil Nazirliyi hesab edir ki, bu qərar hazırda kosmosda 3 peyki olan ölkə üçün müvafiq sahədə kadr çatışmazlığına səbəb olmur. Belə ki, ABŞ (aparıcı nəhəng astronavtika ölkəsi), İngiltərə, Yaponiya, Almaniya, Cənubi Koreya və kosmik tədqiqatları olan bir çox inkişaf etmiş ölkələrin təhsil sistemlərində astronomiya məcburi fənn kimi tədris olunmamışdır.

"Bəs gələcəkdə astronomiyanın ayrıca fənn kimi yenidən tədris olunması nəzərdə tutulurmu" sualına isə Təhsil Nazirliyinin cavabı belə olub: "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" sənədi təsdiq edildikdən sonra ümumi təhsilin səviyyələrində tədris olunacaq fənlərin təhsil proqramları yenidən işlənəcək və təkmilləşdiriləcəkdir. Hazırda tam orta təhsil səviyyəsində təmayül siniflər üçün təhsil proqramlarının yazılması məqsədilə müxtəlif tədqiqat və araşdırmalar aparılır. Araşdırmaların nəticəsindən asılı olaraq, astronomiyanın elmi əsaslarına dair standartları həmin təhsil səviyyəsinin texniki və təbiət təmayüllü siniflərində tədris olunacaq fizika fənninin məzmununa əlavə edilə bilər".

Bəli, göründüyü kimi, Təhsil Nazirliyi astronomiya fənninin ayrıca tədrisini vacib hesab etmir və bunun kadr problemi yaratmadığını iddia edir. Sahənin mütəxəssisləri isə tam əksinə, artıq bir neçə ildir o problemlə qarşılaşdıqlarını bildirir, vəziyyətin daha da pisləşməməsi üçün astronomiyanın tədrisinin təcili şəkildə yenidən bərpa olunmasına dair həyəcan təbili çalır.

Bəli, bu gün yaşadığımız kosmos əsrində astronomiyanı geniş şəkildə öyrənmək üçün onun fənn kimi tədris edilməsinə ciddi ehtiyac var. Astronomiya və onun istiqamətlərindən biri olan astrofizika yaxın gələcəyin elmidir. Qarşıdakı illərdə ən vacib kəşflərin məhz kainatı öyrənən elmlərin sahəsində ediləcəyi gözlənilir. Bunun üçün də astronomiya ayrıca fənn kimi tədris fənlərinin sırasına daxil edilməlidir ki, şagirdlər bu maraqlı və vacib elmin nə olduğunu vaxtında öyrənsinlər. Öyrənsinlər ki, qədim astronomlar ölkəsi sayılan Azərbaycan kainatı öyrənən yeni mütəxəssislər yetişdirsin, bu sahədə bəşəriyyətdən geri qalmasın. Öyrənsinlər ki, müstəqil Azərbaycan vətəndaşı olaraq da kosmosu fəth edə bilsinlər.

***Xəyalə MURADLI, "Azərbaycan"***

# Dəyərlərdən doğan milli maraq

Milli marağı siyasət, dəyərləri isə tarixi inkişaf formalaşdırır. Lakin qloballaşma dövründə şahidi olduğumuz sürətli inkişaf bəzən milli dəyərlərə zidd ideologiyaların yayılmasına gətirib çıxarır. Bu səbəbdən milli dəyərləri qorumaq və təbliğ etmək öz aktuallığını qoruyub saxlamaqdadır. Məqalənin əhatə etdiyi mövzunu daha da açmaq üçün bir neçə məqama aydınlıq gətirmək yaxşı olar.

Dəyər nədir? Dəyər inandığımız, onun üçün yaşadığımız və ömrümüzün sonunadək özümüzlə daşıdığımız mənəvi qida və maddi nəsnədir.

Dəyərləri qorumaq niyə vacibdir? Dəyərlər fərdlərin bir-birinə münasibətində seçiminə, eləcə də seçimlərin mühakimə edilməsinə bələdçilik edən əsas vasitədir. Eyni zamanda, başqalarına qarşı davranış və hisslərimizə təsir edir.

Hansı amillər dəyərlərin formalaşmasında mühüm rol oynayır? Ailə, məktəblər, ibadət yerləri, cəmiyyət, mədəni irs, iş yeri, siyasi görüşlər və kütləvi informasiya vasitələri dəyərlərin formalaşmasında mühüm rol oynayır.

Dəyərlər özlüyündə iki hissəyə bölünür: universal və milli dəyərlər. Səmimiyyət, hörmət, ədalət, bərabərlik, çalışqanlıq, həmrəylik, məsuliyyət, intizam və s. universal dəyərlər hesab olunur. Milli dəyərlərə isə xalqın adət-ənənəsi, dil, din, atributlar, qəhrəmanlıq, vərdişlər, musiqi, incəsənət, teatr, ailə, milli mətbəx və s. daxildir. Nəsillər arasında dəyərlərə loyallığın davamlılığını təmin və təbliğ etmək məqsədilə həm fərd və cəmiyyət, həm də dövlət tərəfindən gözlənilməli olan beş əsas meyara diqqət yetirək.

1. Ardıcıllıq (consistency): fərdin cəmiyyət, cəmiyyətin dövlət, dövlətin həm fərd və cəmiyyət qarşısında fikir, söz və hərəkətlərinin üst-üstə düşməsi, ümumi rifah üçün müəyyən və dəyişməz olaraq qalması nəzərdə tutulur;

2. Dözümlülük (tolerantlıq): bu isə bir fərdin və ya cəmiyyətin malik olduğu keyfiyyətdir. Bu keyfiyyət bizə imkan verir ki, fərqli düşünən, fərqli geyinən və davranan insanlarla eyni çətir altında yaşayaq və işləyək - hətta onların həyat tərzlərini bəyənməsək belə;

3. Ədalət: başqasına qarşı dürüst olmaq, mövcud resursların hər kəsin bərabər olacağı şəkildə bölünməsi, qərəzsizlik və s. kimi meyarlara ciddi əməl edilməsidir;



4. Səmimiyyət: mənəvi dəyərlərə və prinsiplərə qarşı dəyişməz mövqe göstərmək sözügedən anlayışın açıqlaması kimi çıxış edə bilər. Burada əsas məqam ondan ibarətdir ki, istər fərdlər arasında münasibət, istər fərdlə cəmiyyət arasında münasibət, istərsə də cəmiyyətlə dövlət arasında münasibət açıq dialoqa əsaslanmalıdır;

5. Etimad və ya inam: qarşılıqlı münasibətdə gözlənilən nəticə və ya hərəkət.

Qeyd olunan meyarların Azərbaycanda fərd, cəmiyyət və dövlət tərəfindən necə izlənildiyinə nəzər salaq. Belə ki, ölkənin etnik və mədəni xəritəsinə baxdıqda dil, din, mədəniyyət baxımından müxtəlif olan bir coğrafiyada müsəlman, xristian və yəhudinin, türk, avar, udin, ləzgi, talış, kürd, tat, saxur və s. ilə bir çətir altında dinc birgəyaşayışın yüksək səviyyədə inkişafına şahid oluruq. Bəs bunun səbəbi nədir? Buna onlarla səbəb göstərmək mümkündür. Bunlardan biri etnik amildir. Xalqımızın mütləq əksəriyyətini təşkil edən türklərdə kimlik iyerarxiyasının əsas mərtəbələrindən biri əxlaq anlayışıdır. "İgidlik, qoçaqlıq, mərdlik və comərdlik kimi əxlaqi xüsusiyyətlərə böyük önəm verən türklər xəyanəti, yalanı bağışlamaz, dürüst, xeyirxah və mərhəmətli insanı yüksək qiymətləndirərdilər. Onlara görə, bu əxlaqi keyfiyyətlərə malik insan hansı dinə və mədəniyyətə mənsub olmasından asılı olmayaraq hörmətə layiqdir" (Gündüz İsmayılov. "Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz").

Nəticədə dəyərə çevrilən tolerantlığı, hörməti, loyallığı, qarşılıqlı anlaşmanı, səmimiyyəti qorumaq Azərbaycan dövlətinin ümdə vəzifəsinə çevrilmişdir. Nümunə kimi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında qeyd edilmiş *"dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi; Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi"*, habelə milli və dini tolerantlıq mühitinin qorunmasına dair bəndlərini göstərmək olar.

Milli maraqdan doğan siyasət diktə etdi ki, cəmiyyətin sahib olduğu həm universal, həm də milli dəyərləri qorumaq siyasi iradədə də öz əksini tapsın. Həmin siyasətin təzahürü kimi 2016-cı ilin Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm ili" və 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan edilməsini, həmçinin ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmaların maddi-texniki bazasının gücləndirilməsi, onların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə dövlət başçısı tərəfindən təkcə 2019-cu ildə ümumilikdə 3,2 milyon manat maliyyə yardımının ayrılmasını göstərmək olar.

Dövlət tərəfindən bu sahədə atılan mühüm addımlardan biri də institusional bazanın yaradılması olmuşdur. Belə ki, Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılmışdır. Fonda mənəvi dəyərlərin qorunması, onların araşdırılması və gənclər arasında geniş təbliği tapşırılmışdır. Bütün sadalananlar fəxrlə deməyə əsas verir ki, Azərbaycan nadir ölkələrdəndir ki, burada ümummilli dəyərlərin milli maraqlar kontekstində təzahürünü həm siyasi iradədə, həm normativ-hüquqi aktlarda, həm də idarəetmə sistemində görmək mümkündür.

***Rəfi QURBANOV,***
***Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini***

# İlk innovasiya auditi "AzerGold" QSC-də keçirildi

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi müəssisənin texnoloji innovasiya imkanlarının müəyyən edilməsi məqsədilə ölkə üzrə ilk innovasiya auditini "AzerGold" Qapalı Səhmdar Cəmiyyətində (QSC) keçirib.

2019-cu il dekabrın 9-da QSC və agentlik arasında imzalanmış müqaviləyə əsasən audit heyəti ilk olaraq cəmiyyətin istehsal və idarəetmə prosesləri, biznes modeli və məhsulları ilə tanış olub. Daha sonra aidiyyəti struktur bölmələrinin rəhbərləri və məsul əməkdaşları ilə cəmiyyətin innovasiya imkanları ilə bağlı şifahi və yazılı sorğular keçirilib.

Növbəti mərhələdə audit heyəti şirkətin Daşkəsən rayonunda yerləşən Çovdar Filiz Emalı Sahəsinə işgüzar səfər həyata keçirib. Səfər çərçivəsində cəmiyyətin mütəxəssisləri tərəfindən audit heyətinə mədən-istehsal prosesi əyani şəkildə izah edilib. Sahədə istehsalın bütün mərhələləri izlənilib və proseslərin innovativliyi, kommunikasiyaların səmərəliliyi, daxili nəzarət və texnoloji proseslərin ardıcıllığının izlənməsi, sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühit və insan resurslarına dair növbəti sorğular yerinə yetirilib.

27 yanvar 2020-ci il tarixdə cəmiyyətin inzibati binasında innovasiya auditinin yekunlarına dair iclas keçirilib. İnnovasiyalar Agentliyi tərəfindən təqdim olunan hesabatda şirkətin fəaliyyəti müsbət qiymətləndirilib, istehsalatın daha da optimallaşdırılması üçün müxtəlif innovativ həllərin tətbiqi ilə bağlı təkliflər öz əksini tapıb. Qeyd edək ki, innovasiya auditi Elmi və Texnoloji Fəaliyyətin Ölçülməsi üzrə Beynəlxalq Standartlara uyğun olaraq aparılır. Ölkədə ilk dəfə olaraq məhz "AzerGold" QSC-də həyata keçirilən innovasiya auditi cəmiyyətin bu sahədə gördüyü işləri stimullaşdırmaqla yanaşı, Azərbaycanın müvafiq indekslər üzrə Qlobal İnnovasiya Reytinqinin yaxşılaşmasına da öz təsirini göstərəcək.

Qeyd edək ki, fəaliyyət istiqamətləri üzrə innovativ həlləri tətbiq edən və daim təkmilləşdirən "AzerGold" QSC dağ-mədən sahəsində ən müasir texnologiyaların tətbiqini həyata keçirir və mütəmadi qaydada maddi-texniki bazasını tələblərə uyğun olaraq yeniləyir. İstehsal prosesinin səmərəliliyini artırmaqla bərabər işçilərin sağlamlığının qorunması, əməyin təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin mühafizəsi məsələləri cəmiyyətin əsas prioritetlərini təşkil edir.

# Bakı Ali Neft Məktəbinin 8 tələbəsi diplomdan əvvəl BP şirkətindən iş təklifi alıb

Bakı Ali Neft Məktəbinin (BANM) 8 tələbəsi BP şirkətindən iş təklifi alıb. Belə ki, sonuncu - V kursda təhsil alan tələbələr hələ təhsil ilini tam başa vurmayıb və diplomlarını almayıblar.

Təklif alan BANM tələbələrindən 6-sı (Cavid Əliyev, Xədicə Məmmədova, Əli Nuraliyev, Nihad Abbasov, Sədiqə Balacayeva, İsa Məmmədli) neft-qaz mühəndisliyi ixtisasının, 2 nəfəri isə (Nigar Cahangirova, Sədayə Ömərova) kimya mühəndisliyi ixtisasının tələbələridir.

İş təklifi almış tələbələr əsasən BP şirkətinin həyata keçirdiyi yay təcrübə proqramında uğurla iştirak etmiş, eləcə də BP dəyərlərini mənimsəyən və şirkətin müəyyən etdiyi meyarlara cavab verən tələbələrdir. Adıçəkilən tələbələr 2019-cu ilin iyul-sentyabr aylarında BP şirkətində təcrübə keçiblər. Əvvəlcə ingilis dili və qabiliyyət imtahanı verən tələbələr müsahibə mərhələsini də uğurla keçdikdən sonra təcrübə proqramında iştirak hüququ qazanıblar.

Təcrübəçilər 2 ay müddətində real layihələr üzərində işləyərək həm texniki biliklərini, həm də ünsiyyət, davranış, komanda işi, təqdimat bacarıqlarını inkişaf etdiriblər. Həmçinin təcrübə proqramının yekunu olaraq tələbələr BP-nin mütəxəssisləri qarşısında təqdimatla çıxış ediblər.



Əldə etdikləri uğurlu nəticə ilə əlaqədar Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov tələbələr və onların valideynləri ilə görüşüb. Yüksək nailiyyət münasibəti ilə tələbələri və valideynləri təbrik edən rektor Bakı Ali Neft Məktəbinin hər bir tələbəsi və məzunu ilə qürur duyduğunu bildirib. O qeyd edib ki, BANM-in əsas missiyası yüksək ixtisaslı ingilisdilli mühəndis kadrları ilə yanaşı, tələbələri həyata və dünyaya hazırlamaqdır. Rektor məhz buna görə də BANM-də təhsil alan gənclərin hətta diplom almadan belə işlə təmin olunduğunu diqqətə çatdırıb. E.Qasımov bildirib ki, yarandığı gündən etibarən ali məktəbin məzunlarının hər biri nüfuzlu yerli, transmilli və beynəlxalq şirkətlərdə uğurlu pozisiyalarda işlə təmin olunurlar.

Valideynlər çıxış edərək bildiriblər ki, BANM-də tələbələrə beynəlxalq standartlara cavab verən təhsillə yanaşı, onların şəxsi inkişafına hərtərəfli dəstək göstərilir. Qeyd edilib ki, tələbələrə göstərilən xüsusi qayğı onların cəmiyyətə faydalı, müstəqil vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Valideynlər övladlarının diplom əldə etmədən BP kimi nüfuzlu transmilli şirkətdə işlə təmin olunmasından qürur duyduqlarını vurğulayıblar.Tələbələr isə öz növbəsində əldə etdikləri uğurlu nəticəni Bakı Ali Neft Məktəbində aldıqları yüksək təhsil və bacarıqlar, eləcə də onlar üçün yaradılan münbit şərait sayəsində mümkün olduğunu dilə gətiriblər.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Yanvarın 31-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Sumqayıt şəhərində, Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Xızı rayonunda vətəndaşlarla görüşüb. Mədəniyyət Nazirliyindən bildirilib ki, Əbülfəs Qarayev Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində Sumqayıt şəhəri, Qubadlı və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib. Görüşdə sakinlər tərəfindən klub müəssisələrində ödənişli xidmətlərin göstərilməsinə dair ixtisasartırma kurslarının təşkili, televiziya və radio kanalları ilə birgə kitabın təbliği məqsədilə layihələrin həyata keçirilməsi, Şuşaya həsr olunmuş rəsm əsərlərinin sərgisinin təşkili, Xızı rayonu ərazisində tarix və mədəniyyət abidələrinin qorunması, yeni tikilmiş qaçqın şəhərciklərinə mədəniyyət müəssisələrinin köçürülməsi ilə bağlı müraciətlər səsləndirilib.

Qəbulda həmçinin Sumqayıtın Tarixi Muzeyinin ekspozisiya zallarında lazımi avadanlıqların sayının artırılması, Şuşa qalasının 270 illiyinin qeyd olunması, Qubadlı şəhər Ə.Mehdiyev adına uşaq musiqi məktəbinin musiqi alətləri ilə təmin olunması, Sumqayıt Regional Mədəniyyət İdarəsində yaradılmış internet televiziyasının fəaliyyəti barədə, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər edilib.

❖ ❖ ❖

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin Heydər Əliyev Mərkəzində keçirdiyi qəbulda rayon sakinləri tərəfindən Tarix-Diyarşünaslıq Muzeyinin yaradılması, Mikayıl Müşfiq Muzeyinin yerləşdiyi ərazinin hasara alınması, Cəfər Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzi üçün müasir tələblərə cavab verən yeni binanın tikilməsi ilə bağlı müraciətlər səsləndirilib.

❖ ❖ ❖

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev yanvarın 31-də Cəlilabad şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Cəlilabad, Biləsuvar, Yardımlı, Lənkəran və Astara rayonlarının sakinlərini qəbul edib.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, həmin gün Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev isə Salyan və Neftçala rayonlarının sakinləri ilə görüşüb.

Qəbullar zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

❖ ❖ ❖

Yanvarın 31-də Dövlət Gömrük Komitəsinin rəhbərliyi Şirvan, Hacıqabul, Sabirabad, Saatlı və Biləsuvar rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Şirvan şəhərində Şirvan, Hacıqabul və Sabirabad rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov Saatlı şəhərində, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Biləsuvar şəhərində Saatlı və Biləsuvar rayonlarından olan vətəndaşları qəbul ediblər.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov yanvarın 31-də Qobustan Rayon Prokurorluğunun inzibati binasında Qobustan və Xızı rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 7 vətəndaşın müraciətini dinləyib, qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

❖ ❖ ❖

Dövlət İmtahan Mərkəzi (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə yanvarın 31-də şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Saatlı rayonunda vətəndaşları qəbul edib.

Mərkəzdən bildirilib ki, qəbulda Saatlı rayonu ilə yanaşı, Şirvan şəhəri, Hacıqabul, Sabirabad və İmişli rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

Görüşdə əsasən dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, magistratura və rezidenturaya qəbul, ali təhsil müəssisələrinə abituriyentlərin qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

Qeydiyyatdan keçənlərlə yanaşı, görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

❖ ❖ ❖

"Azərsu" ASC-nin sədr müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər. ASC-dən bildirilib ki, yanvarın 29-da "Azərsu" sədrinin birinci müavini Teyyub Cabbarov Tərtər, yanvarın 30-da isə sədr müavini Köçərli Həsənov Ağdam rayonunun sakinləri ilə görüşüb.

Qəbullarda Tərtər və Ağdam rayonlarından olan 39 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər içməli su təchizatı və kanalizasiya, işə qəbul və digər məsələlərlə bağlı olub. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

***AZƏRTAC***

# Əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edilib

İraq Respublikasının dövlət informasiya agentliyi (NİNA) ilə Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) arasında əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edilib. AZƏRTAC xəbər verir ki, müzakirələr Azərbaycanın İraqdakı səfirliyində İraq Media Şəbəkəsinin rəhbəri Fadel Farajullah ilə keçirilən görüşdə aparılıb.

Görüşdə Fadel Farajullah Azərbaycanın kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq etmək məqsədilə media sahəsində sazişin imzalanmasının vacibliyini bildirib.

İki ölkə haqqında informasiya mübadiləsi baxımından NİNA ilə AZƏRTAC arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi təklif olunub. Qeyd edək ki, AZƏRTAC ilə NİNA beynəlxalq media qurumlarında sıx əməkdaşlıq edir.

## Beynəlxalq aləm

### DST dünya ölkələrini koronavirus epidemiyasına hazır olmağa çağırır

2019-nCoV koronavirus epidemiyası dünyanın hər bir ölkəsində baş verə bilər. Bu xəbərdarlığı Dünya Səhiyyə Təşkilatı (DST) etmişdir.




DST bildirmişdir ki, bütün ölkələr xəstəliyin ocağının yaranmasına, xəstələrin dərhal aşkarlanmasına və onların təcrid olunmasına, habelə onların əlaqələrinin izlənilməsinə və virusun yayılmasının qarşısının alınmasına hazır olmalıdır. Çinə məlumatları tamamilə bölüşmək, virusun mənbəyinin aşkarlanması üçün səyləri fəallaşdırmaq, mümkün yoluxma hallarına müşahidəni gücləndirmək və ölkədə xəstələnənləri aktiv şəkildə axtarmaq tapşırılır. Öz növbəsində DST 2019-nCoV ilə mübarizədə hərtərəfli kömək etməyi vəd vermişdir.

Son məlumata görə, Çində yeni tipli koronavirusdan ölənlərin sayı 213 nəfərə, xəstəliyə yoluxanların sayı 9356 nəfərə çatmışdır.

DST-nin Fövqəladə Komitəsi xəstəliyin yayılmasını beynəlxalq fövqəladə vəziyyət kimi qiymətləndirmişdir.

### AİHM həbsxanalarda pis saxlanma şəraitinə görə Fransanı qınadı



Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) məhbusların həbsxanalarda pis saxlanma şəraitinə görə Fransanı qınamışdır. Söhbət həbsxanaların həddən artıq doldurulmasından və məhbuslarla alçaldıcı davranışdan gedir.

Ölkənin islah müəssisəsində saxlanılan 32 məhbus AİHM-ə şikayətlə müraciət etmişdi.

Məhkəmə Parisi pis saxlanma şəraiti və hüquq müdafiəsinin preventiv vasitələrinin qeyri-səmərəliliyi ilə əlaqədar təqsirli bilmişdir. AİHM-in qərarında qeyd olunur ki, üç kvadratmetrdən böyük olan kameralar lazımi saxlanma şəraiti ilə təmin edilməmişdir.

### Hindistanda 23 uşağı girov götürən kişi məhv edildi



Hindistan polisləri öz evində 20-dən çox uşağı girov götürən kişini güllələyərək öldürmüşlər. "İndia Today" qəzetinin xəbərinə görə, hadisə Uttar-Pradeş ştatında baş vermişdir.

Bundan əvvəl qətl törətdiyinə görə ömürlük həbs cəzasına məhkum olunmuş və girov müqabilində azadlığa çıxmış Sureş Batam adlı kişi uşaqları qızının ad gününə dəvət etmişdi. Uşaqlar bir neçə qadının müşayiəti ilə evə gəldikdən sonra o, qonaqları girov götürmüşdü. Həmin vaxt Batamın evində 6 aylıqdan 15 yaşadək 23 uşaq olmuşdur.

Həmkəndlilərdən biri Batamla danışıqlara başlamış, lakin cinayətkar cavabında atəş açaraq qonşusunu ayağından yaralamışdı. Sonra o, hadisə yerinə gələn polisləri atəşə tutmuş və onlara qumbara atmışdır.

Xüsusi əməliyyat zamanı Batam məhv edilmişdir. Üç polis əməkdaşı yaralanmışdır.

### Türkiyənin cənub-şərqində yeni antiterror əməliyyatı başladı



Türkiyənin cənub-şərqində yerləşən Şırnak vilayətində "Kapan-5" ("Tələ") şərti adı altında yeni irimiqyaslı antiterror əməliyyatı başlamışdır. Daxili İşlər Nazirliyinin məlumatına görə, əməliyyat Qabar rayonunda keçirilir.

Əməliyyatda polis və jandarmanın 780 əməkdaşı iştirak edir. Məqsəd vilayətdə PKK terrorçu təşkilatından qaynaqlanan təhlükəni tamamilə aradan qaldırmaqdır. Əməliyyata Çakırsəgüt jandarma briqadasının komandanı və Siirt Regional Jandarma İdarəsi rəhbərlik edirlər.

### ABŞ İran Atom Enerjisi Təşkilatına qarşı sanksiyalar tətbiq etdi



ABŞ İran Atom Enerjisi Təşkilatına və onun rəhbəri Əli Əkbər Salehiyə qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə ABŞ Maliyyə Nazirliyinin xarici aktivlərə nəzarət departamenti məlumat vermişdir.

Vaşinqton 2018-ci il noyabrın 5-də İrana qarşı sanksiyaları tamamilə bərpa etmişdir. Sanksiya siyahısına İran neftinin ixracı, həmçinin 700-dən çox bank, şirkət və fiziki şəxs daxil edilmişdir.

# “Azərenerji” ASC-də 37 gənc kadra yüksək vəzifə verildi



“Azərenerji” ASC dövlət başçısının enerji sisteminin perspektivləri ilə bağlı qarşıya qoyduğu hədəflərə çatmaq, gəncləri önə çəkmək, peşəkarlara şərait yaratmaq məqsədilə kadr məsələsində xüsusi tədbirlər həyata keçirir.

Belə ki, fasiləsiz təhsil, davamlı insan resurslarının inkişafını təmin etmək məqsədilə qəbul edilən xüsusi konsepsiyaya uyğun olaraq səhmdar cəmiyyətin rəhbər vəzifəli şəxsləri tərəfindən bir il əvvəl 125 nəfər gənc və təcrübəli energetiklər himayəyə götürülüb. Həmin gənclərin yetişdirilməsi, bilik və bacarıqlarının artırılması, qocaman energetiklərin yerinə əvəzedici kadr kimi formalaşdırılması üçün 1 il müddətində praktik işlər görülüb. Nəticədə bu günə kimi himayəyə götürülənlər imtahan edilərək, onların 89 nəfəri rəhbər vəzifələr üçün tam hazırlanıb kadr ehtiyatı bankına daxil edilib. İmtahan nəticələri əla olan 37 nəfər gənc yüksək vəzifələrə irəli çəkilib.

Bundan başqa, “Azərenerji” ASC-nin regional elektrik şəbəkələrində və elektrik stansiyalarında çalışan işçi heyətinin təkmilləşməsi, bilik səviyyəsinin yüksəldilməsi məqsədilə yeni yaradılan Tədris Mərkəzi tərəfindən müəssisələrdə 74 kurs təşkil olunub ki, onlara da ümumilikdə 400 nəfərə yaxın işçi cəlb edilib.

# “Azercell”in “Mobil Göz Klinikası”nda 900-dən çox adam müayinə edilib



Müasir texnologiyalar və effektiv həllərin tətbiqi vasitəsilə insan həyatını asanlaşdırmağı hədəf seçən Azərbaycanın lider mobil operatoru “Azercell Telekom” MMC bu istiqamətdə öz fəaliyyətini davam etdirir.

“Azercell”in dəstəyi ilə valideyn himayəsindən məhrum uşaqlar üçün müayinə və profilaktikanın aparılmasını təmin edən “Mobil Göz Klinikası” ən müasir avadanlıqla təchiz olunub. Klinikanın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır.

2019-cu il ərzində müayinədən keçənlərin 759-u uşaq və 142-si böyüklər olmaqla, cəmi 901 nəfər olmuşdur.

Xatırladaq ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri “Azercell”in dəstəyi ilə “Xəzər Qayğıkeşlik Layihəsi” İctimai Birliyi tərəfindən həyata keçirilir. Layihə çərçivəsində “Mobil Göz Klinikası” minlərlə insana xidmət göstərib.


Azercell

**abunəçilərinin nəzərinə**

12.03.2020-ci il tarixdən etibarən “Xüsusi 10 GB=12 AZN” və “Xüsusi 30 GB=20 AZN” paketlərə dair kampaniyaya yeni təsis olunan Data nömrələrin qoşulmaları dayandırılacaq. Qeyd olunan tarixə kimi qoşulan abunəçilər standart qaydalara əsasən paketlərdən ümumi əsaslarla istifadəni davam edə biləcək və kampaniya müddəti ərzində digər tarif paketlərinə keçid etdikdən sonra yenidən kampaniyaya qoşulmaq imkanına malik olacaqlar.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



Azercell

**abunəçilərinin nəzərinə**

03.03.2020-ci il tarixdən etibarən fakturalı və fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulan “Limitsiz həftəsonu” internet paketinə görə 1,5 AZN xidmət haqqı tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


## B İ L D İ R İ Ş

“Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi” publik hüquqi şəxsi (DOST Agentliyi) **məsləhət xidmətlərinin göstərilməsi üzrə xidmətin** satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi **“EKVİTA CONSULTİNG” MMC** müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## E L A N

31 yanvar 2020-ci il tarixdə “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq “Star Sığorta Agentliyi” Məhdud Məsuliyyətli Cəmiyyətinin (Cəmiyyət) müraciətinə əsasən cəmiyyətə sığorta agenti fəaliyyətinə verilmiş 08 noyabr 2013-cü il tarixli, 000995 nömrəli lisenziya Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən ləğv edilmişdir.

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi 2020-ci ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivallarının təşkili işlərinin satın alınması ilə əlaqədar

## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**2020-ci ildə Bakı şəhərində və regionlarda dövlət bayramlarına, bölgələrin yaradıcılığına həsr olunmuş festival, bayram, müsabiqə və tədbirlərin, eləcə də uşaq və gənclər arasında incəsənətin növləri üzrə respublika müsabiqə və festivallarının təşkili işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, http://etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Bəxtiyar Qılıncov
Email: bgilinjov@gmail.com
Əlaqə telefonu: 012 498-97-81

**İştirak haqqı: 250 (iki yüz əlli) manat**
**Rekvizitlər:**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu : 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 fevral 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini isə **04 mart 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların tender təklifləri **06 mart 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

29 yanvar 2020-ci il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aparatın balansında olan xidməti minik avtomobillərinə texniki-təmir xidmətlərinin satın alınması üçün keçirilən kotirovka sorğusunda **fiziki şəxs Məmmədov Elmar İmran oğlu** qalib olmuşdur.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasının fasad örtüyünün 2020-ci il ərzində 3 (üç) dəfə yuyulması işinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir***

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 05 fevral 2020-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

# Müddətli həqiqi hərbi xidmətə yanvar çağırışı başa çatıb

Prezident İlham Əliyevin 2019-cu il noyabrın 26-da imzaladığı “Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” sərəncama uyğun olaraq növbəti həqiqi hərbi xidmətə çağırış başa çatıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, ay ərzində qurum tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi müvəffəqiyyətlə yekunlaşıb.

Ölkəmizin bütün şəhər və rayonlarında SHXÇDX-nın yerli idarə, şöbə və bölmələrinin şəxsi heyətinin, ictimaiyyətin, hüquq mühafizə orqanlarının, şəhər və rayon icra hakimiyyətlərinin, kütləvi informasiya vasitələri nümayəndələrinin, ziyalıların, ağsaqqalların, şəhid ailələri üzvlərinin, veteranların və valideynlərin iştirakı ilə keçirilən yolasalma mərasimləri əsl bayram təntənəsinə çevrilib. Çağırışçılar həqiqi hərbi xidmətə mütəşəkkilliklə və böyük ruh yüksəkliyi ilə yola düşüblər.

Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılıblar.

Yanvar ayında müddətli həqiqi hərbi xidmətə cəlb edilən çağırışçılar Silahlı Qüvvələr üzrə xidmət yerlərinə təyinatla bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən SMS vasitəsilə məlumatlandırılıblar. Vətəndaşlara xidmət edəcəkləri hərbi hissə və qoşun növünü həm də SHXÇDX-nın rəsmi internet saytının “Elektron xidmət” bölməsinin “Həqiqi hərbi xidmətə çağırılan çağırışçıların hərbi xidmət keçmə yeri haqqında məlumatlar” alt bölməsində özləri haqqında tələb olunan məlumatları müvafiq qaydada daxil etməklə dəqiqləşdirmək imkanı yaradılıb.

“Hərbi vəzifə və hərbi xidmət haqqında” qanuna əsasən, ölkə vətəndaşları müddətli həqiqi hərbi xidmətə ildə dörd dəfə - yanvar, aprel, iyul və oktyabr aylarının 1-dən 30-dək çağırılırlar.

# Gəncə səhiyyəsi gücləndirilmiş iş rejiminə keçib

Qlobal təhlükə yaradan yoluxucu xəstəliyin - koronavirusun yayılması ilə əlaqədar Səhiyyə nazirinin imzaladığı əmrə əsasən Gəncə səhiyyəsi də gücləndirilmiş iş rejiminə keçib.

AZƏRTAC xəbər verir ki, Gəncə Şəhər Yoluxucu Xəstəliklər Xəstəxanasında bu məqsədlə 2 xüsusi palata yaradılıb və lazımi dərman preparatları ilə təmin olunub.

Gəncə Şəhər Yoluxucu Xəstəliklər Xəstəxanasının şöbə müdiri Şirin Əhmədova bildirib ki, tibb işçiləri xüsusi geyimlə təmin olunub. Əgər belə xəstəlik halı müşahidə olunarsa, xəstəxana xəstələri qəbul etməyə hazırdır.

Şirin Əhmədova insanlara müraciət edərək deyib ki, birinci gün hərarət qalxarsa və temperatur daim yüksək qalarsa, eyni zamanda, xəstədə ümumi halsızlıq, asqırma, öskürmə halları müşahidə olunursa, təcili həkimə müraciət etmək lazımdır.

Qeyd edək ki, Çindən yayılmağa başlayan koronavirusa bu ölkədə 7711 nəfər yoluxub, 12167 nəfərdə isə şübhəli hal qeydə alınıb. Bunlardan 1370-nin ağır dərəcəli olduğu, 170-nin ölüm halları ilə nəticələndiyi bildirilib. 124 nəfər xəstəlikdən müalicə olunaraq evə buraxılıb. Dünya Səhiyyə Təşkilatının katibliyi digər ölkələrdəki vəziyyətə dair ümumi məlumat verib. Artıq 18 ölkədə 82 yoluxma halı baş verib.

Azərbaycan Turizm və Menecment Universiteti Turizm və qonaqpərvərlik fakültəsinin II kurs tələbəsi Leyla Azər qızı İsayevanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin Tikinti-təmir və kommunal xidmətlər şöbəsinin müdiri Rövşən Əlvəndova əzizi

**FƏXRƏDDİN ƏLİ OĞLU NƏCƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi “Təmiz şəhər” ASC-nin İdarə Heyətinin sədri Etibar Abbasova atası

**TƏHMƏZ ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov Bakı Apelyasiya Məhkəməsinin hakimi Həmid Həmidova anası

**XALİSƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6960
Sifariş 301
Qiyməti 40 qəpik